# MEHRİBAN ƏLİYEVA GƏNCƏYƏ SƏFƏR EDİB



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva martın 6-da Gəncə şəhərinə səfər ediblər. Səfər çərçivəsində Birinci vitse-prezident Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə Heydər Əliyev Fondu tərəfindən aparılan təmir-bərpa işləri ilə tanış olub.

Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin 2020-ci ildə Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsini əbədiləşdirmək üçün inşa edilən Gəncə Memorial Kompleksinin layihəsi ilə tanış olub. Kompleksin təməli 2022-ci il yanvarın 30-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub.

SƏHİFƏ 2-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

8 MART ŞƏNBƏ 2025 - 09 (4210)

Qiyməti - 60 qəpik







## PREZİDENTDƏN QADINLARA 8 MART TƏBRİKİ

Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib. Təbrikdə deyilir: “Hörmətli xanımlar! Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm”.

SƏHİFƏ 2-də



## “47 YAŞIM VAR, AMMA İNDİ DƏ DÖYÜŞÜRƏM”

“Ağ canavar” ləqəbli, dünya şöhrətli idmançı Eduard Məmmədov: “Sağlam bədəndə sağlam ruh olur. Qalib gəlmək üçün həm də dərs oxumalısınız. Yadınızda qalsın, ağıllı idmançını udmaq olmur”.

SƏHİFƏ 6-da



## ORUC ZAMANI DİQQƏT EDİLMƏLİ MƏQAMLAR

Hacı Surxay Məmmədli “Kaspi”yə bildirib ki, İslam dininə görə, oruc ibadəti həddi-buluğa çatmış, sağlam müsəlmanlara vacibdir: “Həddi-buluğ yaşı İslama görə uşaqlar üçün 9-15 yaş arasında dəyişir”.

SƏHİFƏ 15-də



## AZƏRBAYCAN-TÜRKİYƏ TANDEMİNİN NÖVBƏTİ UĞURU

# ORTAQ GÜC NÜMAYİŞİ

Bu gün Cənubi Qafqaz, Yaxın və Orta Şərq, Mərkəzi Asiya, hətta Şərqi Avropa kimi çox böyük coğrafiyada Azərbaycan-Türkiyə birliyinin təsir gücü ciddi şəkildə hiss edilir.

**DAHA BİR MÖHTƏŞƏM TARİXİ HADİSƏ**

Azərbaycan-Türkiyə qardaşlığı daha bir möhtəşəm tarixi ana şahidlik etdi. Martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimi keçirildi. Bu mühüm tədbirdə Prezident İlham Əliyev və türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan iştirak etdilər.

**MÜHÜM SİYASİ ƏHƏMİYYƏTƏ MALİK LAYİHƏ**

Naxçıvana Türkiyə üzərindən qaz nəqlinin reallaşması tək sosial-iqtisadi deyil, həm də mühüm siyasi əhəmiyyətə malikdir. İki dövlət birlikdə qarşılarına çıxa biləcək əngəlləri, yaradılması mümkün süni maneələri məhz bu cür layihələrlə ortadan qaldırırlar.

SƏHİFƏ 3-də

“Azərbaycan cəmiyyətindəki fəal qadınları tanıyıram”

## “İLHAMVERİCİ QADINLAR KAMPANİYASINI DAVAM ETDİRƏCƏYİK”



Meksikanın Azərbaycandakı səfiri Mariya Viktoriya Romero Kabalyero: “Dünya diplomatiyasında getdikcə daha çox qadın rəhbər və qərarvermə vəzifələrini tutur. Meksikada 2024-cü ildə xanım Klaudiya Şeinbaumun ölkə tarixində ilk qadın prezident seçilməsi bir dönüş nöqtəsi və gender bərabərliyi mövzusunda əhəmiyyətli irəliləyiş olub”.

SƏHİFƏ 8-9-da



## OMBUDSMANIN MƏRUZƏSİ QƏBUL EDİLİB

Ötən il Ombudsmanın ünvanına 29 min 371 müraciət daxil olub. Müraciətlərə baxılıb, araşdırmalar aparılıb, insanların üzləşdikləri problem və çətinliklərin həlli məqsədilə aidiyyəti dövlət qurumlarına müraciətlər edilib.

SƏHİFƏ 10-da



## YENİ DÖVRÜN FƏRQLİ UŞAQLARI

Yeniyetmə üçün ailə ilə birlikdə olmaqla yanaşı, bəzən tək qala və öz düşüncələrinə qapıla biləcəyi şəxsi zonanın, zamanın olması vacibdir. Valideynlər onların gündəlik fəaliyyətlərini, davranışlarını nəzarətdə saxlamaqdan çəkinməlidir.

SƏHİFƏ 12-də



## QADIN GÜLƏŞİNİN CANLI ƏFSANƏSİ

Azərbaycan idmanında zirvələr fəth edən Mariya ölkəmizin Olimpiya medalı qazanan ilk və yeganə qadın pəhləvanı ünvanını özündə saxlayır. Stadnik iki dəfə dünyanın, 10 dəfə də Avropanın ən güclüsü adını qazanıb.

SƏHİFƏ 16-da





Makron Fransası artıq güc mərkəzi deyil

SƏHİFƏ 4-də

Zərifin “zərif” gedişi

SƏHİFƏ 5-də



Bu ixtisaslar üzrə keçid balı artacaq

SƏHİFƏ 7-də



Sayları artsa da, bəziləri işləmir

SƏHİFƏ 11-də



Orqanizmin müdafiəçisi, yoxsa düşməni?

SƏHİFƏ 14-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# Prezident Azərbaycan qadınlarını təbrik edib

Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib. Təbrikdə deyilir:

"Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan qadınları hər zaman cəmiyyətimizin mənəvi dayağı olmuş, daim ülvi amallarla yaşamışlar. Çoxəsrlik mədəni-mənəvi sərvətlərimizin günümüzədək layiqincə qorunub saxlanılmasında nəcib və gözəl analarımızın misilsiz xidməti vardır. Onlar öz güclü iradələri, vətənpərvərlik və fədakarlıqları ilə yurdumuzun mübarizə salnaməsində silinməz izlər qoymuşlar.

Azərbaycan qadınlarının dünyanın bir sıra qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ qazanmaları yeni dövr tariximizin əlamətdar faktlarındandır. Mədəniyyət, elm, təhsil və səhiyyənin ən müxtəlif istiqamətləri üzrə müsəlman Şərqinin qadınları arasında ilk addımları atmaları onların yüksək yaradıcı potensialının nəticəsidir. Təqdirəlayiq haldır ki, müasir gənc xanımlarımız bu ənənələrə ehtiram bəsləyir, nəsillərin mənəvi varisliyi prinsipini lazımınca qoruyur, öz maarifpərvər, ziyalı sələflərinin yolunu uğurla davam etdirirlər.

Ötən müddət ərzində milli dövlət quruculuğu prosesində yaxından iştirak edərək bütün sahələrdə əzmlə çalışan qadınlarımız Vətənimizin qüdrətinin artırılması, xalqımızın rifahının yüksəlməsi naminə dolğun və səmərəli fəaliyyət göstərmiş, sosial-iqtisadi və mədəni inkişafda mühüm nailiyyətlər əldə etmişlər.

Müqəddəs ailə dəyərlərimizə dərin sədaqət nümayiş etdirən qadınlarımız ölkəmizin ictimai həyatında böyük nüfuza malikdirlər. Əminəm ki, onlar gənc nəslin Vətənə və milli ideallara bağlılıq ruhunda yetişməsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, həmçinin ictimai-mənəvi mühitimizi yeni töhfələrlə zənginləşdirəcəklər.

Əziz xanımlar!

Bayramınız mübarək olsun!"

# MEHRİBAN ƏLİYEVA GƏNCƏYƏ SƏFƏR EDİB



Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva təmir işləri aparılan məktəbdə, körpələr evi-uşaq bağçasında olublar. Onlar Gəncə şəhərindəki Şah Abbas və Hüseyniyyə məscidlərinə, Aleksandr Nevski adına Rus Pravoslav kilsəsinə baş çəkiblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva martın 6-da Gəncə şəhərinə səfər ediblər.

### HEYDƏR ƏLİYEV FONDU 37 NÖMRƏLİ MƏKTƏBİ TƏMİR EDİR

Səfər çərçivəsində Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə Heydər Əliyev Fondu tərəfindən aparılan təmir-bərpa işləri ilə tanış olublar. Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov məktəbdə aparılan əsaslı təmir-bərpa işləri ilə bağlı məlumat veriblər.

Bildirilib ki, 1969-cu ildə istifadəyə verilmiş tədris müəssisəsində 700-dən çox şagirdin təhsil almaq imkanı olub. Lakin məktəb binası artıq istifadəyə yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən 2024-cü ilin sentyabr ayından əsaslı təmir işlərinə başlanılıb. Binada təmir işlərinin bu ilin sentyabr ayında - yeni tədris ilinə qədər yekunlaşdırılması nəzərdə tutulub.

Birinci vitse-prezident Gəncə şəhəri 40 saylı körpələr evi-uşaq bağçasında da olub. Qeyd edilib ki, bu məktəbəqədər təhsil müəssisəsi 1967-ci ildə inşa olunub. 120 yerlik uşaq bağçasında faktiki 70 uşağın təlim-tərbiyəsi aparılır. Hazırda bina yararsız vəziyyətdədir. Mehriban Əliyeva bağçada məktəbəqədər təhsilin və uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili məqsədi ilə müvafiq tapşırıqlar verib.

### GƏNCƏ MEMORİAL KOMPLEKSİNİN LAYİHƏSİ İLƏ TANIŞLIQ

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin 2020-ci ildə Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsini əbədiləşdirmək üçün inşa edilən Gəncə Memorial Kompleksinin layihəsi ilə tanış olub.

Qeyd edək ki, kompleksin təməli 2022-ci il yanvarın 30-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Memorial Kompleksin ərazisi 4 hektar təşkil edəcək. Kompleksin tərkibindəki muzey binası 2 mərtəbədən ibarət olacaq. Gəncə Memorial Kompleksinin tikintisinin 2025-ci ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulur.



## PERİNATAL MƏRKƏZƏ KÜVƏZLƏR HƏDİYYƏ OLUNUB

Martın 6-da Gəncəyə səfər çərçivəsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində olublar.

Qeyd olunub ki, Perinatal Mərkəz ana olmağa hazırlaşan qadınlara, o cümlədən dünyaya yeni göz açan körpələrə yüksəkixtisaslı diaqnostik, konsultativ və müalicə yardımı göstərən tibb müəssisəsidir.

Tibb müəssisəsindəki şəraitlə tanışlıq zamanı Perinatal Mərkəzə Heydər Əliyev Fondu tərəfindən küvəzlər və ultrasəs müayinə aparatı hədiyyə olunub.

Yeni doğulmuş körpələri ziyarət zamanı analara Fondun hədiyyələri də təqdim edilib.

## HÜSEYNİYYƏ MƏSCİDİNİN BƏRPASI İLƏ BAĞLI TAPŞIRIQ VERİLİB

Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncə şəhərindəki Şah Abbas və Hüseyniyyə məscidlərində də olublar.

Bildirilib ki, 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə Şah Abbas məscidində bərpa və təmir işləri aparılıb. Məscidin mövcud vəziyyətinə baxış zamanı bu tarixi-dini abidənin qorunub saxlanılması istiqamətində növbəti tapşırıqlar verilib.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, qızları Leyla Əliyeva və Arzu Əliyevaya "Qurani-Kərim" hədiyyə olunub.

Hüseyniyyə məscidinin mövcud vəziyyəti ilə tanışlıq zamanı isə bildirilib ki, hazırda bu tarixi-dini abidədə təmir-bərpa işlərinin aparılmasına zərurət yaranıb. Məscidə baxış zamanı burada müvafiq işlərin görülməsinə dair tapşırıqlar verilib.

Mehriban Əliyeva Gəncədə Aleksandr Nevski adına Rus Pravoslav kilsəsində də olub. Qeyd edilib ki, Rus Pravoslav kilsəsi 1887-ci ildə inşa olunub. Məbəd həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına Bizans üslubunda kərpicdən tikilib. Azərbaycandakı mövcud pravoslav kilsələri arasında ən qədimlərindən olan bu tarixi abidədə bir sıra növbəti təmir işlərinin aparılmasına ehtiyac yarandığı bildirilib.

Qeyd edək ki, çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, o cümlədən dini ibadət yerlərinin və maddi-mədəniyyət abidələrinin bərpası, mühafizəsi Azərbaycan dövləti tərəfindən daim diqqət mərkəzində saxlanılır.

# ORTAQ GÜC NÜMAYİŞİ

**Bu gün Cənubi Qafqaz, Yaxın və Orta Şərq, Mərkəzi Asiya, hətta Şərqi Avropa kimi çox böyük coğrafiyada Azərbaycan-Türkiyə birliyinin təsir gücü ciddi şəkildə hiss edilir. Əlaqələrin daha da sıxlaşdırılması, strateji müttəfiqlik bağları bölgəmizdə proseslərin axarını müəyyənləşdirən başlıca faktordur.**







AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan-Türkiyə qardaşlığı daha bir möhtəşəm tarixi ana şahidlik etdi. Martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimi keçirildi. Bu mühüm tədbirdə Prezident İlham Əliyev və türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan iştirak etdilər. Dövlət başçıları bir daha dünyaya iki ölkə arasındakı qardaşlıq münasibətlərinin sarsılmaz olduğunu, bölgəmizdə və daha geniş coğrafiyada Azərbaycan-Türkiyə tandeminin artıq bir güc mərkəzi halına gəldiyinin siqnallarını verdilər.

### AVRASİYANIN ENERJİ XƏRİTƏSİNİ DƏYİŞDİRƏN LAYİHƏLƏR

Prezident İlham Əliyev çıxışı zamanı iki ölkənin birgə reallaşdırdığı meqa enerji layihələrini xatırladaraq, bu addımların Avrasiyanın enerji xəritəsini dəyişdirdiyinə vurğu edib. Dövlət başçısı bildirib ki, bu gün Azərbaycandan Türkiyə ərazisilə gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir: "Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir.

Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək".

İki ölkə arasında nəqliyyat əlaqələrinə toxunan Prezident bildirib ki, bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu həm ölkələrimiz, həm daha geniş coğrafiya üçün çox gözəl üstünlüklər təmin edir: "Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir".

Prezident Rəcəb Tayyib Ərdoğan isə Türkiyə və Azərbaycanın sülhün, sabitliyin, rifahın tərəfində olduğunu deyib: "Bölgəmizdə ancaq sülh istəyirik, əməkdaşlıq istəyirik, hamımızın birlikdə inkişaf etməsini istəyirik. Bu məqsədlə indiyədək bir sıra addımlar atdıq, səmimiyyətimizi göstərdik. İnşallah, bundan sonra regional sülh, rifah və əmin-amanlıqla bağlı hər cür layihəni birlikdə həyata keçirməkdə qətiyyətliyik".

### AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİNİN TƏSİR GÜCÜ

Həqiqətən də bu gün Cənubi Qafqaz, Yaxın və Orta Şərq, Mərkəzi Asiya, hətta Şərqi Avropa kimi çox böyük bir coğrafiyada Azərbaycan-Türkiyə birliyinin təsir gücü, artan nüfuzu ciddi şəkildə hiss edilməkdədir. İki ölkə arasındakı əlaqələrin daha da sıxlaşdırılması, hər bir məsələdə ortaq mövqenin sərgilənməsi, strateji müttəfiqlik bağları bölgəmizdə cərəyan edən proseslərin axarını müəyyənləşdirən başlıca faktordur.

Bu məsələdə Türkiyənin hərbi və siyasi qüdrəti Azərbaycanın enerji resursları, tranzit imkanları ilə birləşərək vahid güc amilini formalaşdırır. Artıq bir çox beynəlxalq mərkəzlər bu güclə hesablaşmaq, onun maraqlarını nəzərə almaq və ən əsası, yerləşdikləri bölgədə istənilən addımı atarkən Bakı və Ankaranın razılığını almalı olduqlarını gözəl bilirlər.

## MÜHÜM SİYASİ GEDİŞ

Naxçıvana Azərbaycan qazının qardaş Türkiyə üzərindən nəqlinin reallaşması isə tək sosial-iqtisadi deyil, həm də mühüm siyasi əhəmiyyətə malikdir. İki dövlət birlikdə qarşılarına çıxa biləcək əngəlləri, yaradılması mümkün süni maneələri məhz bu cür layihələrlə ortadan qaldırırlar. Söhbət təbii ki, tarixi qələbəmizdən sonra İrəvanın məsuliyyətsizliyi səbəbindən hələ də reallaşmayan Zəngəzur dəhlizindən gedir. Yeni qaz xəttinin çəkilişi həm də İrəvana Bakının yeni xəbərdarlığıdır. Öncə İran üzərindən Naxçıvana alternativ yolun inşasına başlanılması, indi isə Türkiyə üzərindən qaz xəttinin çəkilişi Ermənistanın düşdüyü dalandan çıxmaq şanslarını getdikcə sıfıra yaxınlaşdırır. Türkiyə-Azərbaycan birliyinin bölgədə sülh çağırışlarının nəzərə alınmaması Ermənistana çox baha başa gəlir.

### İKİLİ MÜNASİBƏTLƏRİ FƏRQLƏNDİRƏN BAŞLICA CƏHƏT

Xüsusi olaraq qeyd edilməlidir ki, Azərbaycan və Türkiyə arasındakı qardaşlıq, strateji tərəfdaşlıq münasibətlərini bu dərəcədə güclü edən başlıca amil səmimiyyət və heç bir məqsəd güdmədən qarşılıqlı əməkdaşlıqdır.

Bakı ilə Ankaranın uzun illər hərbi və təhlükəsizlik sahəsindəki əməkdaşlığı bölgənin əsas problemi olan Qarabağ münaqişəsinə birdəfəlik son qoydu. İlk dəqiqələrdən etibarən Türkiyənin ali rəhbərliyinin haqq işimizə göstərdiyi siyasi və mənəvi dəstək işğal faktının ən qısa müddətdə aradan qalxmasında mühüm rol oynadı. Azərbaycan Silahlı Qüvvələrinin inkişafında da Türkiyə amili xüsusi qeyd edilməlidir. Azərbaycan isə istər qardaş ölkənin üzləşdiyi meşə yanğınları, istərsə də minlərlə can alan dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılmasında Türkiyənin yardımına yetişən ilk ölkə oldu. Kahramanmaraş vilayətində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin maliyyə imkanları hesabına inşa edilən "Azərbaycan" məhəlləsində artıq son tamamlama işləri gedir. Burada zəlzələ nəticəsində hər şeylərini itirmiş minlərlə sakin məskunlaşacaq.

### TÜRK DÜNYASINA BÖYÜK TÖHFƏ

İndi iki qardaş ölkə qarşısında dayanan başlıca vəzifələrdən biri bu səmimi münasibətlərin bütün türk dünyasını əhatə etməsidir. Bakı və Ankara türk dövlətlərinin ortaq maraqlar, ortaq tarix və qardaşlıq bağları ilə münasibətlərinin dərinləşdirilməsi istiqamətində ciddi addımlar atırlar. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün türk dünyasına böyük bir töhfədir. Azərbaycan hər zaman türk dünyasının birləşməsinə çox böyük önəm verir və öz tərəfindən bu birliyi təmin etmək, əbədiləşdirmək səylərini əsirgəmir.



# MAKRON FRANSASI ARTIQ GÜC MƏRKƏZİ DEYİL

Fransa nəzarət etdiyi əraziləri üzərində nüfuzunu itirməyə başlayan XXI əsrin ilk metro-poliyasına çevrilir. Makron Fransası müasir dünyanın heç də yeganə neokolonial dövləti deyil. Ancaq onun yeni yüzillikdə müstəmləkələrini bir-bir itirən ilk müstəmləkəçi dövlət olma reallığı danılmaz faktdır.



RÜSTƏM QARAXANLI

Fransanın "Opinion Way" təşkilatı tərəfindən aparılan rəy sorğusunun nəticələrinə görə, ölkə əhalisinin yalnız 23%-i prezident Makrona etimad göstərir. Ölkə liderinə münasibətdə sərgilənən ümummilli biganəlik Fransa hökuməti və digər dövlət institutlarının da vətəndaşların gözündən düşməsi üçün əsas rolunu oynayır. Hökumətə dəstək də təqribən 20%-dən bir qədər yüksəkdir. Fransızlar hesab edirlər ki, "ölkənin demokratik sistemində fəxr ediləsi heç nə yoxdur". İnsanların cəmi 40%-i deputatlarının kimliyindən xəbərdardırlar. Bunun nəticəsi olaraq, əhalinin parlamentə rəğbət göstəricisi də müvafiqdir - cəmi 24%. Bu nəticələr Makron Fransasında olan ümumi ab-havanın inikasıdır ki, belə bir mənzərənin formalaşmasının əsas məsuliyyəti də məhz dövlətin birinci şəxsinin üzərinə düşür.

### YARITMAZ DAXİLİ, DİŞSİZ XARİCİ SİYASƏT

Makronun biabırçı reytinqi onun tək daxili siyasəti ilə bağlı deyil. Əgər əhalinin sosial və iqtisadi rifahının təmin edilməsinə yönəlmiş tədbirlər fiaskoya uğrayırsa və bu, vətəndaşda narazılıq yaradırsa, Parisin beynəlxalq aləmdəki iflası sıravi fransalının sanki qüruruna toxunur. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri, nüvə dövləti olan Fransa bir-birinin ardınca sağalmaz diplomatik yaralar alır və əsrlərlə nəzarət etdiyi təsir dairələrindən məhrum olur. Bir sözlə, Makron Fransanın müasir tarixinə tək yaritmaz dövlət idarəçiliyi ilə deyil, həm də dişsiz diplomatiyası və Parisin beynəlxalq nüfuzunu xərcləmiş prezident kimi daxil olur.

### MAKRONUN DƏYƏRSİZ SÖZÜ

Ukrayna ətrafında cərəyan edən son hadisələr Makronun lider mövqelərdən çıxış etməyə çalışdığı Avropadakı nüfuz dairələrindən də məhrum olduğunu göstərir. ABŞ Prezidenti Donald Trampla qalmaqallı görüşdən dərhal sonra Parisə deyil, Londona gedib Baş nazir Kir Starmerlə məsləhətləşmələr aparan Volodimir Zelenskinin bu qərarı ona dəlalət edir ki, Makronun sözü artıq Ukrayna problemində də xüsusi dəyərə malik deyil.

Makronun özünü Avropanın lideri statusunda təqdimat cəhdi də irəli sürdüyü təşəbbüslərin fiaskoya uğraması ilə uğursuzluğa düçar olur. Ənənəvi təsir ünvanları olan Afrika, Okeaniya və Asiyanın bəzi bölgələrindən çəkilmək məcburiyyətində qalan Paris diqqətini postsovet məkanına yönəltsə də, burada da əliboş qalır. Ukrayna cəbhəsində qitə liderliyini Böyük Britaniya ələ alır, Parisin Cənubi Qafqaz təşəbbüsləri isə "beşik"də boğulur. Gürcüstandakı siyasi proseslərin kulisarxası "qəhrəman"ı olmağa çalışan Makronun ağzı burada da ovulur: iqtidar partiyası əhalinin əksəriyyətinin səslərini qazanır, Fransa maraqlarının keşiyində duran sabiq prezident Salome Zurabaşvili isə Gürcüstanın siyasi səhnəsini tərk etmək məcburiyyətində qalır.

## İflasın əsas səbəbi - aşağılayıcı ritorika

Fransa nəzarət etdiyi əraziləri üzərində nüfuzunu itirməyə başlayan XXI əsrin ilk metropoliyasına çevrilir. Makron Fransası müasir dünyanın heç də yeganə neokolonial dövləti deyil. Ancaq onun yeni yüzillikdə müstəmləkələrini bir-bir itirən ilk müstəmləkəçi dövlət olma reallığı danılmaz faktdır. Parisin nüfuz dairələrini növbə ilə burada oyanmış milli özünüdərk hərəkatına təhvil verməsi ilk növbədə Makronun liberal-faşizm ruhlu, aşağılayıcı, eqoist ünsiyyət tərzi, sanki əsrlər öncə olduğu kimi, ona bağlı olan ərazi və ölkələrə yuxarıdan aşağı baxan, şəxsiyyəti alçaldan davranışı ilə əlaqədardır. Makron Fransası XXI əsr reallığını dərk etməkdə sanki çətinlik çəkir və özünün aqressiv-qəsbkar ritorikası ilə yüzillər boyu çapıb-taladığı coğrafiyalardan sıxışdırılıb birdəfəlik çıxarılması üçün zəmin yaradır.

## Uğursuz kompensasiya cəhdləri

Afrikadakı iflasdan sonra Fransanın yeganə kompensasiya istiqamətləri Ukrayna və Ermənistan olsa da, hadisələrin gedişatı ona dəlalət edir ki, Makron burada da uğur əldə edə bilməyəcək. Ukrayna ilə mənzərə aydındır: Parisin dəyişə biləcəyi heç nə yoxdur, Fransa həm diplomatik masa, həm də döyüş meydanında çevriliş etməkdə gücsüzdür, bunun üçün Makronun nə alətləri var, nə də yetərincə resursu. Onun Vaşinqtona səfəri zamanı Tramp tərəfindən soyuq qəbul edilməsi, hətta protokola uyğun olaraq önünə çıxıb qarşılamaması Makronun ABŞ üçün də əhəmiyyətsiz lider olduğunu göstərir.

"opinionway

Cənubi Qafqazda Parisin İrəvanı birtərəfli dəstəkləmək siyasəti isə ümumiyyətlə, Fransanın bölgədəki mövcudluğunu heçə endirib. Halbuki Makronun aşkar ermənipərəst xəttinə qədər Fransanın Azərbaycanda yetərincə güclü olan iqtisadi dayaqları var idi. Makronun şəxsi kin və antipatiyası üzərində qurduğu dövlət siyasətinin fiaskosu Parisi nəinki iqtisadi rıçaqlardan edir, eyni zamanda, geosiyasi ambisiyaları üzərindən xətt çəkmiş olur. Özü də tək Fransanın deyil, həm də onun təmsil və liderlik etdiyi Avropa İttifaqı kimi iri və qlobal aktorun.

Makronun həm daxildə, həm də beynəlxalq çapdakı uğursuzluqları Fransanın qarşıdakı müddətdə, konkret olaraq hakimiyyətə yeni qüvvələrin gəlişi ilə mürəkkəb "restart" prosesindən keçmək məcburiyyətində qalma reallığından xəbər verir. Əgər Parisdəkilər özlərinin xarici siyasət konsepsiyasına yenidən, soyuq başla baxmaq istəyində olsalar, şübhəsiz ki, Makron dövrünün başlıca problemi olan tərəfkeşlik, şəxsi simpatiya kimi amillərdən imtina etməli olacaqlar. Əks halda V Respublikanın - müasir Fransanın "güclər liqası"na dönüşü daha böyük müddətə uzanacaq, Parisin ciddi aktor statusunu geri qaytarmaq cəhdləri uğursuz olacaq.

# ZƏRİFİN "ZƏRİF" GEDİŞİ

İranda strateji məsələlər üzrə vitse-prezident Məhəmməd Cavad Zərifin istefası şok effekti doğurub. O, 2015-ci il nüvə sazişinin əsas fiquru, Qərblə danışıqların davam etdirilməsinin tərəfdarı kimi tanınıb.



AZƏR NURİYEV



Qonşu İranda maraqlı və təlatümlü hadisələr yaşanır. İstefalar, radikallarla liberallar arasında ənənəvi qarşıdurma, sosial narazılıqlar ölkə gündəmini zəbt edib. Parlamentin iclasında iqtisadiyyat və maliyyə naziri Əbdülnasir Həmmatinin impiçmentindən sonra strateji məsələlər üzrə vitse-prezident Məhəmməd Cavad Zərifin istefası şok effekti doğurub. İran mətbuatının məlumatına görə, Prezident Məsud Pezeşkian hələ onun ərizəsini qəbul etməyib. Zərif prezidenti dəstəklədiyini deyib və onun kabinetinə uğurlar arzulayıb.

### UZUN MÜDDƏTDİR MÜHAFİZƏKARLARIN TƏNQİD HƏDƏFİNDƏ İDİ

Həqiqətən də, Zərifin Məsud Pezeşkian hökumətindən istefa verməsi sensasion xəbər olub. O, 2015-ci il nüvə sazişinin (JCPOA) əsas fiquru, islahatçıların, Qərblə danışıqların davam etdirilməsinin müdafiəçisi kimi yadda qalıb. Uzun müddət idi ki, İran mühafizəkarlarının tənqid hədəfində idi. Onlar hesab edirlər ki, vitse-prezidentin baxışları İslam Respublikası ali rəhbərliyinin bütün əsas məsələlər, xüsusilə ABŞ ilə danışıqlarda ümumi mövqeyi təmin etmək cəhdləri fonunda milli birliyə təhlükə yaradır. Zərifin hökumətdən getməsində onun uşaqlarının ABŞ pasportlarına malik olması faktı da rol oynaya bilər. O, bu ilin yanvarında Davos forumunda çıxış edərkən bildirmişdi ki, İslam Respublikası hökuməti hicabsız küçəyə çıxan iranlı qadınlara təzyiq göstərməməyi qərara alıb, hətta hicabın olmaması milli qanunvericiliyə zidd olsa da. "Biz düzgün istiqamətdə hərəkət edirik. Bu, kifayət deyil, amma düzgün istiqamətdə atılan addımdır", - deyə Zərif bildirib.

Davosdakı çıxışa cavab olaraq, İran parlamentinin milli təhlükəsizlik komitəsi Zərifi vəzifədən kənarlaşdırmağa çağırıb.

Deputatlar izah ediblər ki, beynəlxalq təzyiq şəraitində İran cəmiyyətinə "düşüncədə, sözlərdə və hərəkətlərdə birlik və bütövlük" lazımdır, Zərifin sözləri isə ölkəni parçalayır.

Ölkənin ali lideri Əli Xamenei başda olmaqla, mühafizəkarlar əmindirlər ki, hazırkı şəraitdə danışıqlar prosesi mümkün deyil. Məsud Pezeşkian və Cavad Zərifin mənsub olduğu islahatçılar isə hesab edirlər ki, Vaşinqtonla dialoq zəruridir.

Zərif mötədil keçmiş prezident Həsən Ruhani dövründə İranın xarici işlər naziri olub və İrana qarşı sanksiyaların ləğvinə imkan verən nüvə sazişinin bağlanmasında mühüm rol oynayıb.

## İSTEBLİŞMENT DAXİLİNDƏ FİKİR AYRILIQLARI

İsteblişment daxilində fikir ayrılıqlarının mövcudluğunu bu yaxınlarda Məsud Pezeşkianın özü də açıqlayıb. "Mən düşünürdüm ki, amerikalılarla dialoqa girmək daha yaxşı olardı, lakin ali lider dedi ki, biz ABŞ ilə danışmayacağıq", - deyə İran prezidenti bildirib. Hələlik Tehranın beynəlxalq ictimaiyyətlə münasibətləri daha da gərginləşir. Əgər bu ilin ortalarına qədər İran nüvə problemi üzrə danışıqlara getməsə, Böyük Britaniya, Fransa və Almaniya BMT Təhlükəsizlik Şurasının qərarı ilə tətbiq edilmiş bütün sanksiyaları bərpa edəcək. ABŞ-nin xeyir-duası ilə daha ciddi addımlar İsrail tərəfindən atıla bilər.

İqtisadiyyat nazirinə etimadsızlığa gəldikdə isə, bu, Məsud Pezeşkian və mühafizəkarlar arasındakı böhranı dərinləşdirəcək. Mühafizəkarlar İran parlamentində çoxluq təşkil edirlər. Beləliklə, prezidentin təyin etdiyi nazir mühafizəkarların səyi ilə vəzifəsindən kənarlaşdırılıb. Zərifin istefa verməsi isə, istənilən halda İran hökumətindəki böhranı dərinləşdirəcək.

## İQTİSADİ ÇƏTİNLİKLƏR ARTIR

Belə bir fikir də var ki, Zərifin, iqtisadiyyat və maliyyə nazirinin istefası həm də Tehran hakimiyyətinin ölkədəki iqtisadi vəziyyətlə bağlı problemlərinin həllinə yönəlmiş bir addımdır və qərblə danışıqların perspektivinə işarə edir. Bu istefalar İranda artan iqtisadi çətinliklər fonunda əhalinin narazılığının yüksəldiyi bir vaxta təsadüf edir. Tehrana müxalif olan KİV-lərin qeyd etdiyi kimi, 2024-cü ilin sentyabrından milli valyuta 50%-dən çox dəyərsizləşib. "Iran International" kanalının məlumatına görə, rialın çökməsi davamlı yüksək inflyasiya ilə birlikdə iranlıların həyat səviyyəsinə əhəmiyyətli təsir göstərib.

AFP bildirir ki, hazırda daxili qara bazarda 1 ABŞ dolları 920 min riala dəyişdirilir. Bu, 2024-cü ilin ortalarında bir dolların 600 min riala bərabər olduğu məzənnədən xeyli yüksəkdir.

Ekspertlərin gəldiyi yekun qənaət belədir ki, istənilən halda, son gərginliklər prezidentin istefası ilə nəticələnməyəcək. Belə ki, Məsud Pezeşkian özündən əvvəlki islahatçı prezidentlər kimi mühafizəkar dairələrlə münasibətləri gərginləşdirmək istəmir, son dərəcə ehtiyatlıdır. Lakin rialın ucuzlaşması və inflyasiya, Trampın sanksiyaları sərtləşdirməsi potensial olaraq sosial etirazlara gətirib çıxaracaq.



BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# “47 YAŞIM VAR, AMMA İNDİ DƏ DÖYÜŞÜRƏM”

“Ağ canavar” ləqəbli Eduard Məmmədov: “Sağlam bədəndə sağlam ruh olur. Qalib gəlmək üçün həm də dərs oxumalısınız. Yadınızda qalsın, ağıllı idmançını udmaq olmur”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Çempion olmaq gözəl hissdir. Amma bunun üçün əziyyət çəkməlisən, həmişə özünə inanmalısan. Birdən-birə heç kim çempion olmur. Əzilə də, yorula da bilərsən. Əsl idmançı odur ki, axıra qədər dözsün və çempion olsun...” Kikboksinq üzrə 28 qat dünya, 11 qat Avropa çempionu, Əməkdar idman ustası və Əməkdar məşqçi, Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti Eduard Məmmədovun bu fikirləri paytaxtdakı 292 nömrəli tam orta məktəbdə şagirdlərlə keçirilən görüşündə əsl motivasiya kimi səsləndi.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə reallaşdırdığı “Məktəbdə” layihəsinin qonağı şagirdlərə həyat yolundan, uğur qazanmağın sirlərindən danışdı.

### “YADINIZDA QALSIN, AĞILLI İDMANÇINI UDMAQ OLMUR”

“Mütləq deyil idmanla çempion olmaq üçün məşğul olasan. İdman sağlamlıq deməkdir. Sağlam bədəndə də sağlam ruh olur. Qalib gəlmək üçün həm də dərs oxumalısınız. Yadınızda qalsın, ağıllı idmançını udmaq olmur. Nə qədər çox savadlı olsan, rəqibin bir o qədər səni uda bilməz”, - deyə idmançı kikboksinqə həvəsinin necə yaranmasından danışdı: “Mən çox idman növlərinə getmişəm, amma seçə bilmirdim. 1995-ci ildə bizim ölkəmizdə Kikboksinq Federasiyası yaranmağa başladı. Hələ onda bu idman növünün qaydalarını tam bilmirdilər. Mən bu idman növü ilə məşğul olmağa başladım. O vaxtdan bu günə qədər döyüşürəm. İlk dəfə kikboksinqə gedəndə “görəsən məndə alınacaqmı?”- deyə düşünürdüm. Amma özümə inanırdım. Orada yaxşı dostlar qazandım. Başa düşdüm ki, idmançı üçün ən böyük motivasiya udmaqdır. Nə qədər çox uğur qazanırsan, o qədər motivasiya çoxalır. Motivasiyanı özünüz özünüzdən almalısınız. Mən 4-5 il kikboksinqlə məşğul olandan sonra ilk uğurumu qazandım. Onda 16 yaşım vardı. Özümdən böyük idmançını udub Azərbaycan çempionu oldum.

Hansı idman növündə olsaydım, çempion olacaqdım. Çünki zəhmətkeş idmançıyam. Yalnız əziyyət çəkəndə qalib gəlmək olur. Kikboksinqlə ən çox oğlan uşaqları məşğul olur. Amma son vaxtlar qızlar da məşğul olmağa başlayıb. Bu idman növü xarakteri möhkəmləndirir, özünə inamı artırır. Yeniyetmə vaxtlarda kinoya baxıb Jan Klod Vandam, Brus Li kimi aktyorları özümə kumir seçirdim. Onlar idmançı deyildilər, sadəcə aktyor idilər. Ancaq indi idmanda göz önündə olan dünya çempionları var. Siz onlardan məsləhət ala bilərsiniz. İdmanda Messi, Ronaldo kimi idmançılar var. Siz onları özünüzə kumir seçin. Mütləq kumiriniz olsun. Yarışda himnimiz səslənəndə, bayrağımız qalxanda özünü çox xoşbəxt hiss edirsən. İdmançı üçün bundan gözəl an yoxdur”.

### 15 SANİYƏ ƏRZİNDƏ QƏLƏBƏ

E.Məmmədov ona verilən “Ağ canavar” ləqəbindən də danışdı: “Bu ləqəbi mənə müəllimim verib. Dedi ki, sən necə ildir ağ canavar kimi məşq edir, canavar kimi döyüşürsən. Yenə də yarışda ağ canavar kimi döyüşüb qalib gəlməlisən. Gərək ləqəbi idmançıya müəllimi versin. Sən isə çalışıb bu ləqəbi doğrultmalısan. Xoşbəxtəm ki, müəllimimin verdiyi ləqəbi doğrulda bildim”.



İdmançı ən çox qürur duyduğu yarışını da xatırladı: “Mənim ən tez qalib gəldiyim yarış erməni idmançı üzərində qələbəm olub. Ona 15 saniyə ərzində qalib gəldim. O, yerdə uzanmışdı, mən bayrağımızı götürüb onun başı üzərində durdum. Bütün dünyaya göstərdim ki, biz həqiqətən güclüyük. Bizim yumruqlarımız möhkəmdir”.

### GÜCLÜ RƏQİBƏ QALİB GƏLMƏYİN SİRRİ

Dünya çempionu yarış zamanı güclü rəqibə qalib gəlməyin sirrini də açıqladı: “Hər idmançıya hörmətlə yanaşırsan. Elə idmançılar var ki, səni gözü və ya mimikası ilə qorxutmağa çalışır. Mən həmişə arenaya gülüşlə çıxıram. Bu, rəqibə “onsuz da səndən heç nə alınmayacaq” deməkdir. Hansısa psixoloji məqamda rəqibi özündən çıxarırsan. Döyüşdə fiziki gücdən başqa, elə bir taktikan olmalıdır ki, rəqibi udasan. Ümumiyyətlə, asan döyüş olmur. Döyüşdə rəqibinin zəif yerini hiss etməlisən. Onu hiss edirsənsə, demək qabaqcadan döyüşə hazır olursan”.



Fotolar: Rüfət Mikayılov - Global Photostock

## NİZAM-İNTİZAM, HƏVƏS VƏ ÖZÜNƏ İNAM

Dünya çempionu tələbələrinin uğurları ilə öyündüyünü dedi: “Mənim 47 yaşım var, amma indi də döyüşürəm. Tələbələrimə deyirəm ki, əgər sizin müəlliminiz döyüşür və çempion olursa, siz də döyüşməli və udmalısınız. Tələbələrim beynəlxalq arenalarda yarışır və çempion olurlar. Onlarla qürur duyuram. Hər kəs mənim tələbəm ola bilər. Lazım deyil ki, mənim yanıma mütləq çempion gəlsin. Əsas odur ki, tələbənin nizam-intizamı, həvəsi və özünə inamı olsun. Elə olub ki, özümdən güclü idmançıları udmuşam. Çünki özümə inamım olub. Bunlar olsa, mütləq çempion olacaqsan”.

E.Məmmədov layiq görüldüyü mükafatlardan da danışdı: “Mən idmançı olmağımla qürur duyuram. İndiyə qədər çox mükafatlar qazanmışam. Bunların içərisində mənim üçün ən qiymətli mükafat “Vətən uğrunda” medalıdır. Bir neçə gün öncə Kikboksinq Federasiyasına vitse-prezident təyin olunmuşam. Bu, mənim üzərimə məsuliyyət qoyur. Fəaliyyətimlə mənə verilən mükafatlara layiq olmağa çalışıram”.

E.Məmmədov bildirdi ki, 2027-ci ildə kikboksinq üzrə Avropa Çempionatının Bakıda keçirilməsi nəzərdə tutulur: “Sonuncu dəfə 2010-cu ildə çempionat Bakıda keçirilib. Sevindirici hadisədir ki, 17 ildən sonra yenidən Azərbaycanda keçiriləcək. Bu cür mötəbər yarışların ölkəmizdə keçirilməsi dövlətimizin uğurudur”.

Qonaq şagirdlərə növündən asılı olmayaraq idmanla məşğul olmağı məsləhət gördü: “İdman ilk növbədə sizin sağlamlığınızdır. İndi narkomaniya çoxalıb, zərərli vərdişlərlə məşğul olanlar çoxdur. Siz belə insanları görəndə onları düzgün yola dəvət edin, pis yoldan çəkindirin, onlara inam verin. Hansı peşəni seçirsinizsə, orada uğur qazanmağa, lider olmağa çalışın. Siz Azərbaycanın gələcəyisiniz. Çalışın, ölkəmizin fəxri olun!”

# BU İXTİSASLAR ÜZRƏ KEÇİD BALI ARTACAQ

Bu il qəbul imtahanlarının formatında köklü dəyişikliklərin olması gözlənilmir. Lakin plan yerləri uğrunda rəqabət yüksək olacaq. Prestijli və tələb olunan ixtisaslar üzrə qəbul ballarında da artım gözlənilir.



SEVİNC ABBASOVA

Qarşıdan qəbul imtahanları gəlir. Abituriyentlər və valideynlər həyəcanla bu imtahanları gözləyirlər. Statistikaya görə, son illər ölkənin ali təhsil müəssisələrinə tələbə qəbulunun artması müşahidə olunur. Belə ki, 2024-2025-ci tədris ili üçün ali təhsil müəssisələrinə 74 min nəfərdən çox şəxs qəbul edilib. 2005-ci və 2017-ci illərlə müqayisədə qəbul sayları müvafiq olaraq 2.2 dəfə və 1.7 dəfə artıb. Bəs, görəsən, builki qəbul imtahanları necə olacaq? Hansısa yeniliklər gözlənilirmi? Qəbul planında artım və ya azalma olacaqmı? Keçid balları ilə bağlı proqnozlar nədən ibarətdir?

**İMTAHANLAR TƏDRİCƏN MÜRƏKKƏBLƏŞİR**

Təhsil eksperti Kamran Əsədov hesab edir ki, son illərdə qəbul imtahanlarının tədricən mürəkkəbləşdiyi müşahidə olunur. Onun sözlərinə görə, qəbul imtahanlarında təfəkkürə və tətbiqi biliklərə əsaslanan sualların artması ehtimalı yüksəkdir: "Xüsusilə məntiqi təfəkkürü yoxlayan suallara daha çox yer ayrılması mümkündür. 2023-cü və 2024-cü illərdə keçirilmiş imtahanların sual modelləri göstərir ki, Dövlət İmtahan Mərkəzinin (DİM) məqsədi tək bilikləri yoxlamaq deyil, həm də onları tətbiq etməyi tələb edən situativ sualları artırmaqdır. Bu tendensiya builki imtahanlarda da davam edə bilər. Qəbul imtahanlarına hazırlaşan abituriyentlər üçün əsas tövsiyə məntiqi və analitik təfəkkürə əsaslanan suallara üstünlük vermək, müxtəlif tipli testləri işləməklə imtahan formatına uyğunlaşmaq və vaxtı effektiv idarə etməkdir. Xüsusilə riyaziyyat və məntiq əsaslı tapşırıqlarda sürətli və dəqiq cavab vermək qabiliyyətinin inkişaf etdirilməsi vacibdir".

**İMTAHANLARIN FORMATINDA KÖKLÜ DƏYİŞİKLİKLƏR OLMAYACAQ**

Ekspert vurğulayır ki, qəbul imtahanlarının formatında köklü dəyişikliklərin olması gözlənilmir: "DİM imtahanların strukturunu ani və kəskin dəyişikliklərlə yox, tədricən transformasiya etməklə yeniləyir. Lakin bəzi fənlər üzrə açıq sualların və situasiya əsaslı tapşırıqların artması mümkündür. Azərbaycan dili, riyaziyyat və xarici dil fənlərində yazılı cavab tələb edən sualların nisbətinin artması ehtimalı var".

Qəbul planında artım və ya azalma məsələsinə gəlincə, mütəxəssis bunun bir neçə amildən asılı olduğunu bildirir.

Ekspert onu da qeyd edir ki, əgər qəbul planı genişlənərsə və plan yerlərinin sayı artarsa, keçid balları müəyyən qədər aşağı düşə bilər: "Əksinə, əgər plan yerləri azaldılarsa və ya abituriyentlərin nəticələri əvvəlki illərlə müqayisədə yüksələrsə, keçid ballarının artmasını müşahidə edəcəyik".

K.Əsədovun sözlərinə görə, son illər bəzi ixtisaslar üzrə keçid ballarında ciddi dəyişikliklər baş verib: "Xüsusilə tibb, informasiya texnologiyaları və mühəndislik ixtisasları üzrə keçid ballarının artması tendensiyası müşahidə edilir. Bunun səbəbi həmin sahələrə tələbatın artması və yüksək bal toplayan abituriyentlərin bu ixtisaslara yönəlməsidir. Əksinə, bəzi humanitar ixtisaslarda keçid balları aşağı düşüb, çünki həmin sahələrə maraq əvvəlki illərə nisbətən azalıb".



Kamran Əsədov

Elçin Əfəndi

## "RƏQABƏT DAHA YÜKSƏK OLACAQ"

Təhsil eksperti Elçin Əfəndi isə bildirir ki, bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında rəqabət daha yüksək olacaq: "Abituriyentlərin statistikasına baxsaq görərik ki, ötən illərlə müqayisədə müraciət sayında ciddi artım var. Yəqin ki, bu say 100 min nəfərə qədər artacaq. Bu da o deməkdir ki, plan yerləri uğrunda rəqabət çox olacaq". Ekspertin fikrincə, indiki imtahan modeli 2019-cu ildən bəri tətbiq edildiyi üçün hər il abituriyentlər daha hazırlıqlı olurlar: "Abituriyentlər artıq imtahan suallarına, mövzularına, model testlərə uyğunlaşıblar. Buna görə də ildən-ilə yüksək nəticələr görmək mümkündür. Sualların asanlığı, çətinliyi abituriyentlərin nə qədər hazır olmasından asılıdır".

**PLAN YERLƏRİNİN SAYI ARTACAQ**

Ekspert vurğulayır ki, abituriyentlərin nəticələri uğurlu olarsa, bu, prestijli ixtisaslarda keçid ballarına təsir edəcək: "Amma dövlətin sosial-iqtisadi proqramında 2026-2027-ci ilə qədər qəbul planının təxminən 85 minə qədər çatdırılması planlaşdırılıb. Bu, həm magistr, həm də bakalavrları əhatə edir. Düşünürük ki, bu il həm bakalavr, həm magistratura pilləsinə təxminən 75-80 minə yaxın qəbul aparılacaq. Belə olan halda plan yerinin artması ümumi mübarizə aparan abituriyentlərin hər birinin demək olar ki, qəbul olunması anlamını verir".

E.Əfədinin sözlərinə görə, bu il birinci ixtisas qrupunda informasiya təhlükəsizliyi, informasiya texnologiyaları, kompüter mühəndisliyi, kompüter elmləri, o cümlədən neft-qaz mühəndisliyi, kimya mühəndisliyi ixtisaslarında rəqabət yüksək olacaq. İkinci ixtisas qrupunda maliyyə, biznesin idarə edilməsi, o cümlədən menecment, dövlət və bələdiyyə idarəetməsi, beynəlxalq ticarət və logistika ixtisaslarına tələbat daha böyük olacaq. Üçüncü ixtisas qrupunda hüquqşünaslıq, dövlət və ictimai münasibətlər, o cümlədən, pedaqoji ixtisaslara qəbul gərgin mübarizədə keçəcək. Dördüncü ixtisas qrupunda isə tibb və stomatologiya, biotexnologiya, psixologiya ixtisasları rəqabətli olacaq.

E.Əfəndi sözügedən ixtisaslar üzrə keçid ballarının artacağını proqnozlaşdırır: "Bu ixtisaslarda rəqabət ildən-ilə artır. Ona görə də keçid ballarının enməsini deyil, artmasını gözləyirik. Əgər bu il nəticələr yaxşı olarsa, minimum 3-5 bal, maksimum 15-20 bala qədər artım gözlənilir".

MÜSAHİBƏ Kaspi 8 MART ŞƏNBƏ 2025 9

“HƏM AZƏRBAYCANDA, HƏM DƏ MEKSİKADA QADINLARIN MÜXTƏLİF SAHƏLƏRDƏ TÖHFƏSİNİ ARAŞDIRIR VƏ YÜKSƏK QİYMƏTLƏNDİRİRİK”

# “İLHAMVERİCİ QADINLAR KAMPANİYASINI DAVAM ETDİRƏCƏYİK”


SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Meksikanın Azərbaycandakı səfiri Mariya Viktoriya Romero Kabalyero:** “Dünya diplomatiyasında getdikcə daha çox qadın rəhbər və qərarvermə vəzifələrini tutur. Meksikada 2024-cü ildə xanım Klaudiya Şeinbaumun ölkə tarixində ilk qadın prezident kimi seçilməsi bir dönüş nöqtəsi və gender bərabərliyi mövzusunda əhəmiyyətli irəliləyiş olub”.

“Mən Azərbaycan cəmiyyətindəki fəal qadınları tanıyıram. Onların cəmiyyətə yararlı işlərini müşahidə edirəm. Onlar öz işlərinə məsuliyyətlə yanaşırlar”. Meksika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Mariya Viktoriya Romero Kabalyero “Kaspi”yə müsahibəsində ölkələrimiz arasında qarşılıqlı əməkdaşlıq, ikitərəfli əlaqələrin inkişaf yolları ilə bərabər, qadınların muxtariyyəti üçün gördükləri işlərdən də danışdı.

### FEMİNİST XARİCİ SİYASƏT

**● Xanım səfir, “Forbes Woman” iddia edir ki, diplomatiya daha çox kişi dünyasıdır, nəinki qadın. Fəaliyyətinizlə bu fikirlərin yanlış olduğunu sübut etdiyinizi demək olarmı?**

● Diplomatiya kişilərin əksəriyyət təşkil etdiyi bir sahə olub, lakin bu gün əhəmiyyətli dəyişikliyin şahidiyik. Dünya diplomatiyasında getdikcə daha çox qadın rəhbər və qərarvermə vəzifələrini tutur. Meksikaya gəldikdə, 2024-cü ildə xanım Klaudiya Şeinbaumun ölkə tarixində ilk qadın prezident kimi seçilməsi bir dönüş nöqtəsi və gender bərabərliyi mövzusunda əhəmiyyətli irəliləyiş olub. Onun prezidentlik postuna gəlməsi stereotipləri qırmaqla yanaşı, demokratiyanın möhkəmləndirilməsi və qərar qəbuletmədə qadınların iştirakını simvolizə edir. Digər tərəfdən, feminist xarici siyasət Meksika diplomatiyasının mərkəz elementinə çevrilərək, daha ədalətli və firavan bir cəmiyyətin qurulması məqsədilə qlobal səviyyədə qadınlar və qız uşaqlarının hüquqlarını təşviq etmək, bütün beynəlxalq münasibətlərdə gender yanaşmasını tətbiq etmək məqsədini daşıyır. Tarixən Meksika regional və beynəlxalq səviyyədə gender bərabərliyinin carçısı olub. 1975-ci ildə qadınların dünya konfransına ev sahibliyi edib. Biz hər zaman qadınların muxtariyyəti üçün açar mövzuları müdafiə etmişik.



**● Azərbaycandakı qadınların fəaliyyətini necə müşahidə edirsiniz?**

● Azərbaycandakı fəaliyyətim dövründə konkret misallarla izah etmək üçün sosial şəbəkələrdəki kampaniyamızı qeyd edə bilərəm. Hər həftə səhiyyə, idman, incəsənət və sair sahələrdə fərqlənmiş meksikalı və azərbaycanlı qadınlar haqqında qısa məlumat veririk. Bununla da, mədəniyyətlərinə sevgi ilə yanaşan qadınlarımız arasında oxşarlıqları vurğulayaraq, onların yeni nəsil qadın və qız uşaqları üçün nümunə olmaqları qeyd olunur. Həm Azərbaycanda, həm də Meksikada qadınların müxtəlif sahələrdə töhfəsini araşdırır və yüksək qiymətləndiririk. Hesab edirik ki, bu cür qadınların ictimai həyatda fəal olması cəmiyyətin rifahına yönəlir. Necə ki, siz jurnalist xanım olaraq öz qurumunuzu təmsil edirsiniz, eləcə də yüzlərlə, minlərlə xanımlar öz ölkələrinin mənafeyini qorumaqdadırlar.

Azərbaycanda meksikalı xanımlar özlərini çox güvənli hiss edirlər. Onların burada imkanı çatır ki, daha çox elmə, təhsilə yönəlsinlər. Meksikalı xanımlar burada ispan dilinin təbliği ilə məşğuldurlar. Biz də onlara hər cür dəstək göstəririk. Komandamızda xanımların sayı daha çoxdur. Onların məsuliyyətli və işgüzar olması mənə xoş təsir bağışlayır. Mən Azərbaycan cəmiyyətindəki fəal qadınları tanıyıram. Onların cəmiyyətə yararlı işlərini müşahidə edirəm. Onlar öz işlərinə məsuliyyətlə yanaşırlar.

Meksikanın feminist xarici siyasəti xarici siyasətdəki qərar qəbuletmədə qadınların iştirakına təkan verməyə və diplomatik işdə qadınların töhfəsini tanımağa istiqamətlənib.

**● “Missiyamın digər mühüm aləti sosial şəbəkələr vasitəsilə xalq diplomatiyasıdır”. Bir müsahibənizdə belə demisiniz. Cəmiyyətlərimizin bir-birini tanıması üçün onların vasitəsilə fəaliyyətinizi, layihələrinizi təbliğ etmisiniz. Yeni kampaniyalar nəzərdə tutursunuzmu?**

● Elədir ki, var. Düşünürəm ki, ictimai diplomatiya bir çox sahələrdə, ələlxüsus da, mədəni, turistik və idman sahələrində bizə yardım edən bir alətdir. Bu il də ilhamverici qadınlar kampaniyasını davam etdirəcəyik. Kampaniya müxtəlif sahələrdə fərqlənən meksikalı və azərbaycanlı qadınların ölkələrimizin tarixlərindəki izini tanımağa sövq edir. Hər iki ölkənin yararlana biləcəkləri turizm və idman sahələrinin təbliğatına böyük diqqət yetirəcəyik.

### TİCARİ İMKANLARDAN DAHA YAXŞI YARARLANMAQ ÜÇÜN...

**● Xanım səfir, ümumiyyətlə, Meksika ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın inkişaf dinamikası haqqında nə deyə bilərsiniz?**

● Ölkələrimizin verdiyi əhəmiyyəti əks etdirən xüsusi tədbirlər vasitəsilə son iki ildə münasibətləri möhkəmləndirməyə istimaqətlənmişik. Bu il ikitərəfli münasibətlərin 33-cü ildönümünü qeyd edirik, Meksika Səfirliyinin Bakıdakı ilk onilliyi isə artıq tamam oldu. Siyasi dialoq çox yaxşı səviyyədədir, bu il ərzində bir sıra məhsuldar səfərlərin mübadiləsi, hüquqi bazanın təkmilləşməsi və təhsil, elm, idman, mədəniyyət kimi sahələrdə əməkdaşlığın təbliğatını davam etdirməyi gözləyirik. Bizim yaxşı tərəqqimiz var və potensialı nəzərə alaraq, onu konkret nəticələrə istiqamətləndirməliyik. Həmçinin parlamentlərarası münasibətlər da vacibdir. Hazırda Meksika-Azərbaycan dostluq qrupunun üzvlərinin təyin olunmasını gözləyirik ki, onlar millət vəkili Jalə Əliyevanın sədrlik etdiyi Azərbaycan-Meksika parlamentlərarası işçi qrupu ilə təmaslara başlasınlar.

Xüsusi tədbirlərin keçirilməsi bizə Bakıda siyasi məsləhət-ləşmələrin dördüncü raundunu keçirməyə zəmin yaradacaq və ondan sonra yeni hədəflərə addımlayacağıq.



*Həm Azərbaycanda, həm də Meksikada qadınların müxtəlif sahələrdə töhfəsini araşdırır və yüksək qiymətləndiririk. Hesab edirik ki, bu cür qadınların ictimai həyatda fəal olması cəmiyyətin rifahına yönəlir.*

**● Ölkələr arasında əməkdaşlıqdan danışanda təbii ki, ən mühüm prioritetlərdən biri ticarət və investisiyaların inkişafı hesabına iqtisadi əməkdaşlığın genişlən-dirilməsidir. Hazırkı rəqəmlər ölkələr arasında mövcud poten-siala cavab verirmi?**

● Son illərdə Azərbaycanla Meksika arasında iqtisadi əmək-daşlıqda mühüm irəliləyişlər olub, lakin mübadilə imkanlarından tam yararlanmaq və ticari əlaqələri möhkəmləndirmək üçün hələ də geniş potensial mövcuddur. 2024-cü ildə ikitərəfli ticarət 239.2 milyon dollara çatıb, bu isə əvvəlki illə müqayisədə 341.9% artım deməkdir. Hazırda Meksika Azərbaycanın Latın Amekrikasındakı əsas ticari tərəfdaşıdır. Meksikanın Latın Amerikasında ikinci ən böyük iqtisadiyyatı və dünya üzrə əsas ixracatçılardan biri olmağını nəzərə alaraq, daha böyük sinergetikaları inkişaf etdirə bilərik. Azərbaycanın Qafqazdakı strateji yerləşməsi və təbii sərvətlər zənginliyi vardır. Müəyyən edilmiş bütün ticari imkanlardan hələ ki, tam istifadə olunmayıb. Hazırda ticari imkanlardan daha yaxşı yararlanmaq üçün Meksika və Azərbaycanın iş adamları icmaları arasında münasibətlərin genişləndirilməsi prosesindəyik. Məqsədimiz qarşılıqlı iş adamları missiyaları, assosiasiyalar arasında əlaqələri, ticarət sərgilərində iştirakı həvəsləndirmək, logistik bağlantılara təkan vermək, mal və xidmətlər mübadiləsini asanlaşdıracaq sazişləri müəyyənləşdirməkdir.

**● Sizin fikrinizcə, ölkələrimiz hansı iqtisadi sahələrdə əməkdaşlığı intensivləşdirə bilər?**

● Meksika şirkətlərinin imkanlar tapa biləcəkləri bəzi sektorlar mövcuddur. Tikinti və infrastruktur sahəsi üzrə ixtisaslaşımış şirkətlərimiz irimiqyaslı layihələrdə, yolların, yaşayış binalarının və şəhər mərkəzlərinin inşasında iştirak edə bilərlər. Energetika sektoruna gəldikdə, Azərbaycan bərpaolunan enerji mənbələrinin inkişafında marağını ifadə edib, bu isə günəş və külək enerjisində ixtisaslaşan Meksika şirkətlərini cəlb edə bilər. Digər maraq doğuran sahə isə turizmdir, belə ki, eko-turizm və hotel sektorunun inkişafı üçün Qarabağda böyük potensial mövcuddur. Digər tərəfdən isə, Prezident Klaudiya Şeinbaum tərəfindən təqdim olunan plan 2 min xüsusi layihəyə yönlənən 277 milyard dollar yerli və xarici sərmayə portfeli nəzərdə tutub. Buraya açar sektorlar olan yüngül sənaye, avtomobil sənayesi, farmakoloji sektor, kosmik sənaye, aqrosənaye və elektromobillik sahəsi daxildir. Fürsətdən istifadə edərək Azərbaycan şirkətlərini sərmayə istiqaməti kimi Meksikanın təklif etdiyi geniş imkanları kəşf etməyə dəvət edirəm.



Fotolar: Arif Quluzadə/Global Media Group

## Cəlbedici məhsullar təklif etmək öhdəliyi

**● İkitərəfli əməkdaşlığın əsas yollarından biri təhsil əlaqələridir. Təhsil sahəsində mübadilə necədir?**

● Səfirlik olaraq universitetlərarası əlaqələrin inkişafı və saziş şəbəkəsinin genişləndirilməsinə dair öhdəliyimiz var. Hazırda məqsədimiz tələbə-müəllim mübadiləsi, təqaüd proqramları, qarşılıqlı maraq doğuran mövzularda konfrans və seminarların təşkilini mümkün edəcək əməkdaşlığı təbliğ etməkdir. Həmçinin hesab edirik ki, birgə tədqiqat layihələrində əməkdaşlıq əlaqələrimizi möhkəmləndirmək üçün mükəmməl bir imkandır. Universitetlərarası əməkdaşlığın hələ də çox geniş olmadığına baxmayaraq, təhsilin beynəlmiləlləşdirilməsinə dair artan maraq bu sahədəki əlaqələri genişlədəcəkdir.

**● Turizmin inkişafından ötrü təbii ki, hər iki ölkədə tanıtım tədbirləri həyata keçirilməlidir. Sizcə, Azərbaycan insanı Meksikanı nə qədər tanıyır? Mexikonun və ölkənin “Sehrli Kəndlər”inin ölkəmizdə tanıtımı üçün hansı işləri görürsünüz?**

● Bir ölkəni tanımağın giriş qapısı onun mədəniyyəti və milli mətbəxindən keçir, məhz buna görə, səfirlik olaraq Meksika ilə azərbaycanlılar arasında tanıtımı geniş şəkildə təbliğ edirik. Bu il sosial şəbəkələrdəki kampaniya vasitəsilə turizm təbliğatını daha da gücləndirəcəyik, bununla bərabər, Meksika və Azərbaycanda baş tutan beynəlxalq sərgilərdə hər iki ölkənin nümayəndə heyətlərinin iştirakını da təşviq edəcəyik. Turistik nöqteyi-nəzərdən azərbaycanlılar Meksikanı öz səyahət planlarına daxil etmələri üçün cəlbedici məhsullar təklif etmək öhdəliyimiz var.

**● Bəs meksikalılar Azərbaycana nə qədər maraq göstərirlər?**

● Meksikada Azərbaycan haqqında biliklər getdikcə artır. Formula 1 yarışlarının Bakıda keçirilməsi və meksikalı pilot Serxio “Çeko” Perezin iştirakı şəhərə turizm marağını əhəmiyyətli dərəcədə artırdı. Meksika nümayəndə heyətinin üzvləri arasında rezonans yaradan digər irimiqyaslı tədbir isə keçən ilin noyabrında keçirilmiş COP29 idi ki, hər kəs şəhərdən heyran oldu. Əminəm ki, qayıtmağa tərəddüd etməyəcəklər.



**● Azərbaycan kimi Meksika da özünün mədəni irsi ilə fəxr edir. Ölkələrin mədəniyyətlərinin qarşılıqlı tanıdılması üçün hansı işlər görülüb?**

● Təsviri incəsənət, ədəbiyyat, kino, rəqs, musiqi, milli mətbəx və idman sahələrində geniş sayda nümunələri Azərbaycan publikasına təqdim etmək imkanımız oldu. Son iki il ərzində hökumət idarələri və instansiyaları ilə məhsuldar əməkdaşlıq əsasında mədəni təbliğat layihələrimizdə meksikalı artist və aşpazların daimi iştirakı təmin olunub. Bir sıra uğurlu tədbirlərimiz baş tutub.

### YENİ TEXNOLOGİYALARIN GÜCÜ

**● Xanım səfir, hazırda dünyada sürətli dəyişikliklər baş verir - həm siyasi, həm texnoloji. Sizi sevindirən və narahat edən hansı məqamlardır?**

● Şübhəsiz, həm siyasi, həm də texnoloji səviyyələrdə böyük transformasiyalar dövründə yaşayırıq. Məni ən çox həvəsləndirən məqam isə insan həyatının yaxşılaşdırılması, səhiyyə, təhsil və dayanıqlılıq kimi sahələrdə qabaqcıl həllərin yaranması, eyni zamanda, qlobal rabitənin asanlaşdırılması üçün yeni texnologiyaların gücüdür. Buna baxmayaraq, narahatlıqlar da mövcuddur. Siyasət baxımından, dünyanın bir çox regionlarında artan qütbləşmə çətinlik yaradır. Dialoqun əskikliyi və cəmiyyətdə bölgülər kütləvi həllər və razılıqların qurulmasını çətinləşdirə bilər. Meksikalı diplomat olaraq münaqişələrin həlli üçün hər zaman dialoq tərəfdarı olduğumuzu qeyd edirəm.

# OMBUDSMANIN MƏRUZƏSİ QƏBUL EDİLİB

Ötən il Ombudsmanın ünvanına 29 min 371 müraciət daxil olub. Müraciətlərə baxılıb, araşdırmalar aparılıb, insanların üzləşdikləri problem və çətinliklərin həlli məqsədilə aidiyyəti dövlət qurumlarına müraciətlər edilib.




F.ABASOĞLU

Milli Məclis Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsini qəbul edib. Məruzəni qanunverici orqanda Ombudsman Səbinə Əliyeva təqdim edib.

### "29 MİN 371 MÜRACİƏT DAXİL OLUB"

O qeyd edib ki, ötən il ünvanına 29 min 371 müraciət daxil olub: "Müraciətlərə baxılıb, araşdırmalar aparılıb, insanların üzləşdikləri problem və çətinliklərin həlli məqsədilə aidiyyəti dövlət qurumlarına müraciətlər edilib, pozulmuş hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülüb".

### "BİR NARKOLOQA 500 NARKOTİK İSTİFADƏÇİSİ DÜŞÜR"

Məruzənin müzakirəsi zamanı deputatlar da bir sıra aktual məsələləri qaldırıblar.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı ombudsmanın məruzəsində göstərilir ki, çağırışçıların sağlamlıq vəziyyətinin müəyyən edilməsində nöqsanlar var.

Məruzədə narkoloq və klinik psixoloqların azlığı məsələsinə ayrıca yer verildiyini vurğulayan Z.Oruc xatırladıb ki, ölkədə 2015-ci ildə 28 min 555 nəfər narkotik istifadəçisi qeydiyyatda idisə, 2021-ci ildə bu rəqəm 34 minə çatıb: "2016-cı ildə ölkədə narkoloqların sayı 91, ötən il 67, cari ildə isə 66 olub. Göründüyü kimi, bir narkoloqa 500 narkotik istifadəçisi düşür. Belə şəraitdə müalicənin effektivliyi mümkün deyil. Kadrların hazırlanması sahəsində sistemli tədbirlərə ehtiyac duyulur".

### "PENSİYA YAŞINA AZ QALMIŞ İŞDƏN AZAD OLUNURLAR"

Millət vəkili Vüqar Bayramov isə deyib ki, bəzi vətəndaşlar pensiya yaşına az qalmış işdən azad olunur və nəticədə iş tapmaqda çətinlik çəkirlər: "Pensiya yaşına az qalmış məşğul şəxslərin də əmək hüquqlarının qorunması mühümdür. Belə ki, Qazaxıstan Əmək Məcəlləsinə əsasən, ştatların ixtisarı və attestasiyadan keçməmə istisna olmaqla, işəgötürənin təşəbbüsü ilə pensiya yaşına çatmasına iki ildən az qalmış şəxslərlə əmək müqaviləsinə xitam verilməsi qadağandır. Bu baxımdan Azərbaycanda da pensiya yaşına iki il qalmış vətəndaşlarımızın işəgötürən tərəfindən işdən çıxarılmasına yol verilməməsi məqsədəuyğun olardı".

### "Güzəştli ipotekanın maksimum məbləği artırılsın"

Deputat Azərbaycanda güzəştli ipoteka kreditlərinin maksimum məbləğinin artırılmasını təklif edib. Onun sözlərinə görə, bu il ipoteka kreditlərinin verilməsi üçün dövlət büdcəsindən əlavə 100 milyon manat ayrılacaq: "Dövlət büdcəsindən ayrılan bu vəsaitlər daha çox sosial ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün istifadə olunur. 2025-ci ildə 5 minə yaxın vətəndaşımız ipoteka hesabına mənzil sahibi ola biləcək. Güzəştli ipoteka kreditləri maksimum məbləğ 100 min manat olmaqla, 4 faizlə 30 il müddətinə təklif olunur. Mövcud bazar qiymətlərini nəzərə alaraq, güzəştli ipoteka kreditlərinin maksimum məbləğinin 100 min manatdan 150 min manatadək artırılması məqsədəuyğun olardı".



Səbinə Əliyeva

# "Yaşıl istiqraz"lara abunə yazılışı başa çatıb




Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Yaşıl istiqraz"larına abunə yazılışının yekunlaşması ilə bağlı tədbir keçirilib.

"Report" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

"Azərbaycan daim qlobal iqlim gündəliyinə sadiqliyini nümayiş etdirir. "Yaşıl istiqraz"larla bağlı layihə də iqlim təhlükəsizliyinə töhfə verən COP29 irsinin uğurlu davamıdır. Layihə ölkəmizdə innovativ texnologiyaların tətbiqi və enerji səmərəliliyinin artırılmasına xidmət edəcək. İstiqrazlara marağın yüksək olması SOCAR-ın beynəlxalq investorlar qarşısında etibarlı tərəfdaş mövqeyinin bariz təzahürüdür. Layihənin hazırlanmasında və uğurla həyata keçirilməsində əməyi olan hər kəsə təşəkkür edirik", - deyə o qeyd edib.

Xatırladaq ki, "Yaşıl istiqraz" emissiyasının ümumi məbləği 200 milyon ABŞ dollarıdır. Söhbət hər birinin nominal dəyəri 1 000 ABŞ dolları olan 200 min ədəd istiqrazdan gedir. Qiymətli kağızlar 5 il tədavüldə olacaq. Onların illik gəlirliliyi 6%-dir. Faizlər rüblük ödəniləcək. Prosesin anderrayteri "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-dir. İstiqrazlardan əldə olunacaq vəsait "SOCAR Green" MMC-nin bərpa olunan layihələrinə və investisiyalarına sərf ediləcək.

# "BAKCELL" JURNALİST XANIMLARI TƏBRİK EDİB




İnnovasiya və sürət lideri "Bakcell" jurnalist xanımları 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. Şirkət 30-dan çox media nümayəndəsini bir araya toplayaraq, səmimi və qeyri-rəsmi görüş təşkil edib.

Görüşdə "Bakcell"in Korporativ Kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova media sahəsində peşəkarlığı, obyektivliyi və şəffaf informasiyanın yayılmasını təşviq edən bütün xanımları təbrik edərək bildirib: "Qadınların cəmiyyətdəki rolu və uğurları bizi ilhamlandırır. "Bakcell" olaraq biz qadınların peşəkar və şəxsi inkişafına dəstək verməyi prioritet hesab edirik. Onların potensialını reallaşdırması, yeni imkanlar qazanması və öz bacarıqlarını daha da inkişaf etdirməsi üçün daim yanlarında olmağa hazırıq".

Həmçinin tədbirdə xanımlar üçün floristika üzrə master klass keçirilib. Onlar güllərlə kompozisiya qurmağın incəliklərini öyrənib, öz unikal buketlərini hazırlayaraq kreativ yanaşmalarını nümayiş etdiriblər.

Qeyd edək ki, "Bakcell" yarandığı gündən media nümayəndələri ilə sıx əməkdaşlıq edərək, onların fəaliyyətini dəstəkləməyə və jurnalistlərin peşəkar inkişafına töhfə verməyə davam edir.

Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 528
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ELEKTROMOBİL SÜRƏNLƏRİN ƏSAS PROBLEMLƏRİ VƏ ONLARIN HƏLL YOLLARI



# SAYLARI ARTSA DA, BƏZİLƏRİ ARTIQ İŞLƏMİR

Elektromobil sürücüləri enerji doldurma məntəqələrinin azlığından şikayətlənirlər. Artıq əksər ərazilərdə bu cür məntəqələr mövcuddur. İndi əsas problem onların bəzi hallarda işlək olmamalarıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Elektromobillər artıq həyatımızın reallığıdır. Hər gün onlardan istifadə edənlərin sayı artır. Lakin sürücülər enerji doldurma məntəqələrinin azlığından şikayətlənirlər. Xüsusilə də rayonlarda. Statistika isə deyir ki, Azərbaycanda 195 məntəqədə 430 elektrik doldurma cihazı quraşdırılıb. Artan tələbat fonunda bu say yetərlidirmi? Ümumiyyətlə, bu sahədə mövcud vəziyyət necədir?

**"DAVAMLI TEXNİKİ QULLUĞA EHTİYACLARI VAR"**

Bloger İlkin Mustafayev deyir ki, özü dəfələrlə rayonlara elektromobili ilə gedib və heç bir problem yaşamayıb: "Beş ildən artıqdır ki, elektromobil istifadə edirəm. Rayonlara rahat şəkildə getmək olur. İlk vaxtlar avtomobil alanda şarj stansiyaları demək olar ki, yox idi. Ümumi 20-yə yaxın stansiya vardı". Blogerin sözlərinə görə, burada əsas məsələ şarj stansiyalarının quraşdırılması deyil, fəaliyyət göstərməsidir: "Bir il öncəyə baxdıqda, mövcud rəqəmdən üç dəfə az şarj stansiyası var idi. Hazırda isə stansiyaların sayı artsa da, bir çox ərazilərdə olan stansiyalar sıradan çıxmış vəziyyətdədir. Davamlı olaraq, stansiyalara texniki qulluq işlərinin aparılmasına gərək var. Çünki Çindən alınan bu stansiyalar tez sıradan çıxır. İşlək vəziyyətdə olan stansiyalarda isə elektromobillərlə əlaqələnmədə müxtəlif çətinliklər yaranır. Bunlar da texniki təmir işləri və ya yazılım xətaları səbəbindən olur".

Bloger bildirir ki, rayon yollarında müxtəlif ərazilərdə şarj stansiyalarının quraşdırılmasının şahidi oluruq. Hətta Şuşa, Xankəndi kimi işğaldan azad olunmuş yaşayış məntəqələrində də bu hal müşahidə edilir. Amma "Azərişıq" tərəfindən quraşdırılmış bu stansiyaların heç biri aktiv vəziyyətdə deyil: "Kiçik batareya həcmli elektromobil ilə bu ərazilərə səyahət edən istənilən şəxs işləməyən bu stansiyalar səbəbindən ciddi problemlər yaşaya bilər".



İlkin Mustafayev

## "MÜTLƏQ NƏZARƏT MEXANİZMİ OLMALIDIR"

İ.Mustafayev bildirdi ki, bu kimi problemlər rəsmi şirkətdən alınmamış aparatlarda ortaya çıxır: "Şarj stansiyaları kifayət qədər ciddi ölçüdə enerji ötürürlər. Bu səbəbdən stansiyalar mütləq şəkildə qlobal bazarda öz sözünü demiş və təhlükəsizlik standartlarına ciddi cavab verən markalardan alınmalıdır. İdxal edilib, quraşdırılan stansiyaların bir çoxu mənşəyi bilinməyən, Çin satış saytları sayəsində alınan və heç bir markası olmayan stansiyalardır. Bu stansiyalar nəinki gələcəkdə, indi də müxtəlif problemlərə gətirib çıxarır. Stansiyaların işləməməsi, yüksək istiliyin müşahidəsi, daha az enerji ötürməsi, ən əsası, elektromobillərin batareyalarının ömrünün azalması ciddi problemdir. Bu məsələdə mütləq nəzarət mexanizmi olmalıdır".

**"TRANSFORMATOR TAPMAQ ÇƏTİNDİR"**

Blogerin fikrincə, rayonlarda enerji gücü nisbətən zəif olduğu üçün bu ərazilərdə daha az şarj stansiyaları ilə rastlaşırıq: "Çünki şarj stansiyaları kifayət qədər böyük həcmdə enerji ötürmə gücünə malikdir və bu enerjini ötürə bilən transformatorlar mövcud olmalıdır. Hazırda ikinci və üçüncü səviyyə enerji doldurma stansiyaları həm idxal rüsumundan, həm də ƏDV-dən azaddır. Təbii ki, bu, kifayət qədər böyük dəstəkdir. Qonşu ölkələrə baxdıqda bu cür güzəştlərin heç birini onlarda görə bilmərik. Amma quraşdırılma məsələsinə gəldikdə, bu zaman özəl şirkətlərin ciddi problemləri yaranır. Stansiyanın ötürə biləcəyi gücdə transformatorları olan ərazilər tapmaqda çətinlik çəkirlər, müxtəlif qurumlardan bu stansiyaları quraşdırmaq üçün icazələrin alınması da uzun prosesdir. Həmçinin enerji alışı ilə bağlı kifayət qədər rüsum tələb edilir".



Eldəniz Cəfərov

**TƏHLÜKƏLİ VƏ TƏNHA ƏRAZİLƏRDƏ OLAN STANSİYALAR**

İ.Mustafayevin sözlərinə görə, stansiyaların yerləri ilə bağlı da problemlər var. Bir çox hallarda stansiyalar dayanmaq üçün təhlükəli yerlərdədir. Bəzi hallarda isə onların yaxınlığında heç bir iaşə obyekti olmur: "Şarj etmək istəyən şəxs minimum 15, maksimum 50 dəqiqə orada dayanmalıdır. Bu, gecə vaxtına düşdükdə vəziyyət daha da çətinləşir".

**"RENTABELLİK BAXIMINDAN BAKIYA ÜSTÜNLÜK VERİLİR"**

Nəqliyyat eksperti Eldəniz Cəfərovun fikrincə, sahibkarlar üçün regionlarda məntəqə yaratmaq elə də əlverişli deyil: "Elektromobillərin şarj cihazları da rüsumlardan azad edilib ki, sahibkarlar ölkədə enerji doldurma məntəqələrinin yaradılmasında maraqlı olsunlar. Təxminən 12 sahibkar enerji doldurma məntəqələrinin yaradılmasında iştirak edib. Sadəcə, rentabellik baxımından, əsasən Bakı şəhərində quraşdırırlar. Yaxşı olardı ki, bölgələr də enerji doldurma məntəqələri ilə təmin edilsin. Xüsusən də Bakıdan uzaqda, sərhəd ərazilərdə yerləşən rayonlar". E.Cəfərov bildirdi ki, sahibkarlar üçün stimullaşdırıcı addımlar atılmalıdır: "Bunlar tarifdə güzəştlər, subsidiyalar ola bilər. Özəl sektorun hazırda bu sahədəki fəaliyyəti qismən qənaətbəxşdir". Ekspert avtomobili cihaza qoşarkən yarana biləcək təhlükələrdən də bəhs etdi: "Elektromobillərin müxtəlif standartları mövcuddur. Ölkəmizdə əsasən Avropa standartı qəbul edilib. Bu səbəbdən də əksər enerji doldurma məntəqələri bu standartladır. Amma ölkəmizdə digər standartlara məxsus elektromobillər də mövcuddur. Vətəndaşın Çin standartına uyğun maşını Avropa standartlı cihaza qoşması düzgün deyil".

# YENİ DÖVRÜN FƏRQLİ UŞAQLARI

“Uşaqdır”, “mən nə deyirəmsə, onu etməlidir”

Yeniyetmə üçün ailə ilə birlikdə olmaqla yanaşı, bəzən tək qala və öz düşüncələrinə qapıla biləcəyi şəxsi zonanın, zamanın olması vacibdir. Validеynlər onların gündəlik fəaliyyətlərini, davranışlarını nəzarətdə saxlamaqdan və ya tənqid etməkdən çəkinməlidir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ötən həftə yazıçı Müşfiq Xanın oğlunun dərs oxumaqdan bezdiyi üçün evdən qaçması onu tanıyan, tanımayan hər kəsi narahat etmişdi. Ümumiyyətlə, uşaqların yetkinlik dövründə oxumaqdan bezmələri, valideynlərlə normal ünsiyyət qura bilməmələri kimi hallar müşahidə olunur. Etiraz üçün evdən qaçanlar da var, hətta daha irəli gedib başqa variantlara əl atanlar da. Valideyn övladının gələcəyi üçün çalışdığını deyir, uşaq isə o gələcəyi istəmədiyini bildirir. Bəs valideyn qızıl ortanı necə tapmalıdır? Ümumiyyətlə, yeni dövrün yeni yanaşma tələb edən uşaqları ilə tərbiyə metodları necə olmalıdır?

### TƏCRÜBƏDƏ RAST GƏLİNƏN PROBLEMLƏR

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ailə məsələləri şöbəsinin əməkdaşı, psixoloq Zülfiyyə Sadıq bildirdi ki, cəmiyyətdə uşaq və yeniyetmələrlə bağlı rastlaşdığımız problemlərin kökündə həmişə ailədaxili münasibətləri əsas götürürük: “Təcrübədə rast gəlinən problemlər sırasına yeniyetmələrin valideynləri tərəfindən başa düşülməməsi, hüquqlarının məhdud-laşdırılması, şəxsi həyatlarına müdaxilə edilməsi, onları özləri ilə müqayisə etmələri, eyni həyat tərzini və tərbiyə metodlarını yeniyetmələrə tətbiq etmələri, seçim hüququnun verilməməsi, yaş dövrünün xüsusiyyətlərinin nəzərə alınmaması kimi hallar daxildir. Bunlar valideyn-övlad münasibətlərində gərginliklərin yaranmasına səbəb olur”.

### BÖHRAN VƏZİYYƏTİNDƏ VALİDEYN NƏ ETMƏLİDİR?

Mütəxəssis bildirir ki, yeniyetmə üçün ailə ilə birlikdə olmaqla yanaşı, bəzən tək qala və öz düşüncələrinə qapıla biləcəyi şəxsi zonanın, zamanın olması da vacibdir: “Buna görə də valideyn onların gündəlik fəaliyyətlərini, davranışlarını nəzarətdə saxlamaqdan və ya tənqid etməkdən çəkinməlidir. Yeniyetmələrin psixi sağlamlığını təmin etmək üçün ailə və dostlarla münasibəti sağlam olmalıdır.

Onun sosial həyatını davam etdirə biləcəyi mühit təmin edilməlidir. Sosial təcrid vəziyyətində yeniyetmələr günlərini doldurmaq üçün müxtəlif faydasız fəaliyyətlərlə məşğul ola bilərlər. Bu da internet və oyun aludəçiliyi yaradır”. Mütəxəssis qeyd edir ki, yeniyetmələri maraqlarına uyğun fəaliyyətə yönləndirmək vacibdir. Lakin onları internetdən istifadə və ya oyun oynamaqdan tamamilə məhrum etmək olmaz: “Böhran vəziyyətinə səbəb olan hadisəni aydın şəkildə izah etməyə və bütün sualları cavablandırmağa çalışmaq, ailədə və ya uşağa yaxın insanlar arasında itki olduqda bu barədə yeniyetmə ilə danışmaq lazımdır. Valideyn yeniyetmə ilə ünsiyyət zamanı onu aktiv dinləməli, göz kontaktında olmalı, nə deməsindən asılı olmayaraq, mühakimə etməməli, problemlərinin həllinə səbirlə yanaşmalı, hiss və emosiyalarını ifadə etməsinə imkan verməlidir. Yeniyetmə valideynlə ünsiyyətdən qaçırsa, ən azı iki həftə davam edən əhval-ruhiyyədə düşkünlük, fəallığın azalması, tez yorulma, marağın və zövqalma hissinin itirilməsi, çarəsizlik hissi, özünüqiymətləndirmə və özünəinamın aşağı olması və s. kimi depressiv əlamətlər və ya əsassız olan təşviş hissinin olduğu müşahidə edildikdə mütləq peşəkar psixoloji xidmətə müraciət etməlidir”.

Z.Sadıq bildirir ki, yeniyetmələrin davranışında yaranan neqativ reaksiyaların əsas səbəbləri valideyn-övlad münasibətlərindəki ziddiyyətlər, ailədaxili münasibətlərin düzgün qurulmaması, ailədaxili ünsiyyətin zəif olması, yeniyetmənin özünü qeyri-adekvat qiymətləndirməsi və sairdən qaynaqlanır.





Zülfiyyə Sadıq

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Rasif Dünyamalıyev deyir ki, müasir dövrün uşaqları daha çox informa-siyalıdırlar. Valideyn uşağa yanaşanda artıq onu əvvəlki ənənələrə əsasən, “uşaqdır”, “mən nə deyirəmsə, onu etməlidir” tipli qəbul etməli deyil: “Valideyn uşağın ailənin bir hissəsi olduğunu, uşağın da ailədə söz haqqı olduğunu qəbul etməlidir. Ailə ilə bağlı hansısa qərarlar verildikdə uşağa bildirmək, məsləhətləşmək lazımdır ki, o da özünü ailənin bir hissəsi hesab edə bilsin. Əks halda, o, özünü tək hiss edə, bu zaman öz istədiyi qərarları verə bilər. Uşaq başa düşməlidir ki, verdiyi qərarlarla onun da ailədə məsuliyyəti var”.

## “Problemin kökündə dərs yükünün çox olması dayanmır”



Rasif Dünyamalıyev

Həmsöhbətimiz bildirir ki, problemin kökündə dərs yükünün çox olması dayanmır: “Hazırda Azərbaycanda elə uşaqlar var ki, bir gündə 3-4 hazırlığa gedir, fərqli istiqamətlərdə hazırlaşır, hətta bununla yanaşı, beynəlxalq sertifikat üçün çalışanlar da var. Həmin uşağı analiz edəndə görürsən ki, hər şey qaydasındadır, ailə ilə bağları yerindədir. Çünki uşaq ailənin bir hissəsi olduğunu dərk edir və ona ailədə hörmət olunur. Yorğunluq, əlbəttə, ola bilər, amma buna görə ailədən imtina etmək o deməkdir ki, ailənin bir hissəsi olduğunu dərk etmir, geridə qalanların necə narahat olacağını düşünmür. Yaxud da onun başa düşməyi üçün nələrsə olunmayıb”.

### “MƏKTƏBDƏ BU NARAHATLIQ GÖRÜNMƏYİBSƏ...”

Mütəxəssis vurğulayır ki, belə məqamlarda məktəblər də öz funksiyasını yerinə yetirməlidir: “Yeni məktəblər sosial emosional inkişafla bağlı işlər görməlidirlər. Hər bir yeniyetmənin emosional çətinliyi məktəbdə və ailədə aşkar oluna bilər. Məktəbdə bu narahatlıq görünməyibsə, bu da problemdir. Məktəblər prosesə qoşulmalı, pedaqoqların uşaqların emosional vəziyyətlərini dəyərləndirmələri üçün bacarıqları artırılmalıdır. Müəllim uşağın davranışından, ifadə tərzindən başa düşməlidir ki, onda çətinlik var və məktəbin psixoloqunu cəlb etməlidir”.

QARŞIDAKI DÖVRDƏ BAKIDA HANSI BİNALARDAKI LİFTLƏR DƏYİŞDİRİLƏCƏK?

# BİNANIN KÖHNƏSİ, LİFTİN TƏZƏSİ

**Bakının mərkəz hissələrində liftlərin əksəriyyəti dəyişdirilib. İmzalanan yeni sərəncama əsasən, daha 141 köhnə liftin yeniləri ilə əvəz edilməsi nəzərdə tutulur. Amma bu yenilənmədən sonra da Bakıda köhnə liftlər qalmaqda davam edəcək.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Prezident İlham Əliyev bugünlərdə çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, respublikanın yeddi şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə doqquz milyon 940 min manat vəsait ayrılıb. Ayrılan vəsait hesabına Bakıda 141, Sumqayıtda 30, Naxçıvanda 11, Gəncədə 10, Xırdalanda beş, Qazaxda iki, Bərdədə bir yeni liftin istifadəyə verilməsi nəzərdə tutulur.

Əvvəllər də Bakıda köhnə liftlərin dövlət vəsaiti hesabına yenilnməsi işi aparılıb. Maraqlıdır, görəsən yeni sərəncama əsasən, hansı binalardakı liftlər dəyişdiriləcək? Ən əsası, bu mərhələdən sonra Bakıda yenə də köhnə lifti olan bina qalacaqmı?

### SURAXANI, SABUNÇU, NİZAMİ, XƏTAİ...

Daşınmaz əmlak eksperti Ramil Qasımzadə hesab edir ki, bu sərəncamın məqsədi köhnə liftlərin yeniləri ilə əvəz edilməsidir: "Dəyişdiriləcək liftlərin çox hissəsi Bakıda qərarlaşıb. Tək bu il deyil, əvvəlki illərdə də istifadəyə yararsız liftlərin dəyişdirilməsi prosesi həyata keçirilib. Bakının mərkəzi hissələrindəki köhnə liftlərin əksəriyyəti dəyişdirilib. Məsələn Səbail, Nərimanov, Nəsimi kimi ərazilərdə bu proses həyata keçirilib. Köhnə liftlərin yerinə əsasən Almaniya istehsalı olan yeni liftlər quraşdırılıb. Amma Suraxanı, Sabunçu, Nizami, Xətai kimi rayonlarda hələ də keçmiş sovet istehsalı olan liftlər qalmaqdadır. Onların bir çoxu istismar müddətini də çoxdan başa vurub və təhlükə mənbəyidirlər. Söhbət yalnız Bakı Şəhər İcra Hakimiyyətinin balansında olan binalardan gedir. Buraya doqquz və yaxud on altı mərtəbəli binalar daxildir. Yəqin ki, sərəncamda da bu binalardakı liftlərin dəyişdirilməsi nəzərdə tutulub".

### "ZAMANLA BÜTÜN KÖHNƏ LİFTLƏR DƏYİŞDİRİLƏCƏK"

R.Qasımzadənin fikrincə, vətəndaşlar dəfələrlə qeyd olunan ərazilərdəki liftlərlə bağlı şikayətlərini müvafiq qurumlara bildiriblər: "Xüsusən də doqquzmərtəbəli binalardan söhbət gedir. Bunlara Kiyev və Leninqrad layihəli binalar aiddir. Vətəndaşlar orada yerləşən köhnə liftlərdən əziyyət çəkirdi. Dəfələrlə müvafiq idarələrə, həmçinin dövlət səviyyəsində də müraciətlər ediblər. Bunlar nəzərə alınaraq, qeyd olunan liftlərin dəyişdirilməsinə vəsait ayrılıb. Düşünürəm ki, zamanla bütün köhnə liftlər dəyişdiriləcək".










### "MÜVAFİQ KOMİSSİYA YARADILIB"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc da düşünür ki, sovet dövründən qalan liftlərin əksəriyyəti istismar müddətini başa vurub. Həmin liftlərin dəyişdirilməsinə ehtiyac var: "Bununla bağlı müvafiq komissiya da yaradılıb. Onlar tərəfindən 141 bina seçilib. Komissiya vasitəsilə dəyişdirilməsi ən zəruri hesab olunan liftlər müəyyən olunub. Bu sərəncam həmin liftlərə şamil ediləcək. Ümumiyyətlə, istifadəsi mümkün olmayan, artıq qurğu kimi fəaliyyət göstərə bilməyən liftlər nəzərdə tutulur. Hansı ki, artıq təmiri, hissələrinin dəyişdirilməsi mümkün deyil".

V.Oruc bildirdi ki, istismar müddəti başa çatmış liftlərin sayı xeyli çox olsa da, hazırda onlara texniki dəstək xidməti göstərilə bilir: "Əsasnaməyə uyğun olaraq, "Bakı Lift-Təmir" İstehsalat Birliyi liftlərin yoxlanışını təmin edir. İşlək vəziyyətdə olan liftlərə zəruri xidmətlər göstərilir. Təhlükəsizliyin təmin edilməsi üçün müvafiq addımlar atılır. Köhnə liftlər də daimi yoxlanışdan keçirilirlər ki, hər hansı bir təhlükə törətməsinlər".

### "PROSES DAVAMLI OLACAQ"

Ekspertin sözlərinə görə, bu sərəncam hələ Bakını tam olaraq əhatə etmir. Gələcəkdə digər liftlərlə bağlı da qərar veriləcək: "Nəzərə almaq lazımdır ki, bu sərəncamdan sonra da köhnə liftli binalar mövcud olacaq. Düşünürəm ki, bu proses davamlı xarakter daşıyacaq. Çünki Bakı şəhərində təmir olunmalı, dəyişdirilməyə ehtiyac olan liftlərin sayı 141-dən çoxdur".

### MÜVAFİQ QURUM NƏ DEYİR?

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin "Bakı Lift-Təmir" İstehsalat Birliyinin baş mühəndisi Mehdi Hüseynovun sözlərinə görə, sərəncamda nəzərdə tutulan liftlərin taleyi Nazirlər Kabineti tərəfindən veriləcək qərardan asılıdır: "Sərəncam imzalanıb. Prezident Nazirlər Kabinetinə göstəriş verib. Lakin hələ Nazirlər Kabinetinin qərarı mövcud deyil. Qərar verildikdən sonra icrasına başlanacaq. Hələ ki, proses davam edir. Bakı şəhəri üçün 141 bina nəzərdə tutulub. Amma hansılar olacağı hələlik müəyyənləşdirilir".



SON ZAMANLAR TROMBLA BAĞLI XƏSTƏLİYİN CAVANLAŞMASINI MÜŞAHİDƏ EDİRİK

# ORQANİZMİN MÜDAFİƏÇİSİ, YOXSA DÜŞMƏNİ?

Tromb ölümə və həyat keyfiyyətinin ciddi şəkildə aşağı düşməsinə səbəb olur. Uzun müddət hərəkətsizlik, yerüstü və yaxud hava nəqliyyatında saatlarla eyni şəkildə oturmaq trombun yaranmasını tezləşdirir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

O, həm orqanizmin müdafiəçisi, həm də düşmənidir. Müdafiə tərəfini tez-tez qabartsaq da, çox vaxt bizi öldürəcəyinə inanmırıq. Söhbət trombdan gedir. Son vaxt bu problem haqqında tez-tez eşidir, xəstəliyin cavanlaşmasını müşahidə edirik. Son illərdə vaxtsız ölümlərin əksəriyyətini də tromblarla əlaqələndirirlər.

Bəs trombun yaranma səbəbləri nədir? Müdafiəçimiz düşmən mövqeyini yerinə yetirdikdə orqanizmdə hansı fəsadları yarada bilər?

### "BEYİNƏ GEDƏN ŞAH DAMAR TROMBOZU İFLİCƏ SƏBƏB OLUR"

Ürək-damar cərrahı Elvin Məmiyev "Kaspi" qəzetinə açıqlamasında bildirir ki, tromboz canlı orqanizmdə qan elementlərinin ürək, ağciyər və digər daxili orqanlarda, aşağı və yuxarı ətrafın damarlarının daxilində yapışması və pıxtı-tromb əmələ gəlməsi prosesidir: "Uzun müddət hərəkətsizlik, yerüstü və yaxud hava nəqliyyatında saatlarla eyni şəkildə oturmaq tromba səbəb ola bilir. Bundan əlavə, reproduktiv dövrlərində olan xanımlarda hamiləlik əleyhinə istifadə olunan hormonal dərman preparatları, ailənin başqa fərdində tromboz keçmişinin olması, hamiləlikdə, onkoloji müalicə alan xəstələrdə, bəzi gen mutasiyaları olan insanlarda tromboz riski daha yüksək olur".

Həkim bildirir ki, tromb ölümə və həyat keyfiyyətinin ciddi şəkildə aşağı düşməsinə səbəb olur: "Əgər arteriyada tromboz olarsa, bu hansı orqandadırsa, orada qan axımı azalır, toxumalar qan, oksigen və digər qida elementlərindən məhrum olduğu üçün işemiya-infarkt dediyimiz tablo ortaya çıxır. Məsələn, ürəkdəki arterial tromboz miokard, yəni ürək infarktına, beyinə gedən şah damar trombozu iflicə gətirib çıxarır. Əgər arteriyada yox, venalarda tromboz olarsa, bu da hansı orqanda olmasına görə fərqli təzahürlərlə özünü göstərir. Məsələn, böyük vena damar qruplarında olan trombozlarda pulmonar emboliya dediyimiz və ciddi ölüm riski olan xəstəlik ortaya çıxır".

### XƏRÇƏNGDƏN DƏ TƏHLÜKƏLİ...

Mütəxəssisin sözlərinə görə, tromb xərçəngdən də ağır xəstəlik hesab edilməlidir: "Hər nə qədər cəmiyyətdə az bilinsə də, xərçəng və digər xəstəliklərdən daha çox ölümə səbəb olan xəstəlik qrupu elə trombozlardır. Amma müayinə üsullarının və müasir tibbin inkişafı bu xəstəliklərə daha erkən diaqnoz qoymağa imkan verir. Təbii ki, qidalanma, genetika, iqlim şəraiti xəstəliklərin geniş yayılmasında rol oynayır".

Texnologiyanın inkişafı ilə insanların daha çox oturaq həyat tərzinə öyrənmələri müasir dövrdə venoz trombozlara yol açır. Həkim bildirir ki, cəmiyyət olaraq tənbəlləşməyimiz bu xəstəlikləri də həyatımıza dəvət edir: "Hazırda venoz sistemin trombozları arterial trombozlara görə daha çox yayılıb. Çünki oturaq həyat tərzinin müasir dövrdə aktiv həyat tərzinə nəzərən çox olması, texnologiyanın inkişafı ilə hər şeyin "əlçatan" olması cəmiyyət olaraq tənbəlləşməyimizə, bu da venoz trombozlara yol açır. Birbaşa xəstəliyə səbəb olan risk faktorlarından elə ən öndə gələni passiv həyat tərzidir".




## PEYVƏND TROMB YARADIR?

Trombozlarla bağlı cəmiyyətdə və sosial şəbəkələrdə tez-tez səsləndirilən fikirlər peyvəndlərin tromb xəstəliklərini akitvləşdirməsidir. Həkim bildirir ki, pandemiya dövründə peyvənd və tromb arasındakı əlaqənin müzakirəsi aktual idi: "COVID və yaxud digər hər hansı bir infeksion xəstəliyin peyvəndi tromb əmələ gətirmir. Araşdırmalar göstərir ki, COVID-ə yoluxmuş şəxslərdə tromboza meyillilik olurdu. Lakin bunun peyvənd olub-olmamaqla bir əlaqəsi yoxdur".

### BƏS ORQANİZMİMİZDƏKİ GİZLİ DÜŞMƏNİN SİMPTOMLARI NƏLƏRDİR?

Həkim bildirir ki, tromb əgər arterial sistemdədirsə, hansı orqanda olmasından asılı olaraq, simptomu fərqli olur: "Məsələn, əldə və ayaqdadırsa, soyuqluq, rəngin solğunlaşması və şiddətli ağrı ilə özünü göstərir. Yaxud da ürəkdədirsə, infarkt, beyindədirsə, iflic olur və s. Əgər venoz sistemdə bir tromb olarsa, məsələn, əldə və ayaqda ciddi şişlik, orta şiddətli ağrı görərik. Venoz sistemdəki tromb ağciyər damarlarına atarsa, olduqca yüksək ölüm riski olan pulmonar emboliya ilə özünü göstərir. El arasında "tromb atdı öldü" deyilən xəstəlik də elə məhz budur".



Elvin Məmiyev

Həkim vurğulayır ki, trombozun qarşısını almaq üçün iş-ofis şəraitində, xüsusilə orta yaş sonrası insanlar 45-60 dəqiqə aralıqlarla oturduğu yerdən qalxmalı, bir neçə dəqiqə yeriməlidirlər. Uzun avtomobil səyahətlərimizdə iki saatdan bir dayanıb qısa fasilə verməli və yeriyərək qan dövranını sürətləndirməliyik. Bunlarla yanaşı, günlük gəzinti, üzmə və digər idman hərəkətlərini alışqanlıq halına gətirməliyik.

Müalicə metoduna gəldikdə isə, həkim bildirir ki, trombun müalicə taktikası genişdir. Təbii ki, müasir üsullarla həm tibbi, həm cərrahi, həm də endovaskulyar olaraq anjio laboratoriyasında tromboza yönəlik müalicə üsulları tətbiq edilir.

### QAN DURULAŞDIRICI VASİTƏLƏR TROMBU MÜALİCƏ EDİR?

Məlumdur ki, insanlar trombla mübarizə aparmaq üçün tez-tez qan duruldan dərmanlardan istifadə edirlər. Türk həkim Mert Dumantepe deyir ki, həkim məsləhəti olmadan bu dərmanların yerli-yersiz istifadəsi xəstənin həyatında ciddi təhlükə yaradır: "Qan durulaşdırıcı dərmanlardan istifadə qan laxtasını əritmir. Laxtanın genişlənməsinə və qopan parçanın digər orqanlara keçməsinə əngəl olur, amma bu, xəstəliyi müalicə etmir. Çox istifadə etdikdə isə ciddi qanaxmaya səbəb olar, bu da xəstənin həyatını təhlükəyə ata bilər".

Həkim vurğulayır ki, dünyada hər il 3 milyondan çox xəstə tromb səbəbindən ölür: "Dərin damar trombozuna (DVT) hər il 10.000 insandan dördündə rast gəlinir. 60 yaşdan yuxarı insanlarda onun tezliyi bir faizə qədər arta bilər. Nəzərə alsaq ki, bu göstərici hər il ABŞ-də döş xərçəngi və QİÇS-lə bağlı ölümlərin ümumi sayından çoxdur, xəstəliyin ciddiliyi bir daha özünü büruzə verir".

# ORUC ZAMANI DİQQƏT EDİLMƏLİ MƏQAMLAR

Uşaqlar, yaşlılar və süd verən analar oruc tutarkən ehtiyatlı olmalıdırlar. Bu kateqoriyadan olanlar Ramazan ayı boyunca qidalanmalarına diqqət etməlidirlər.

MƏRAHİM NƏSİB

Ramazan ayında azyaşlılar və ahıllar da oruc ibadətini yerinə yetirmək istəyirlər. Bəs uşaqlar bu ibadəti yerinə yetirə bilərlərmi? Yaşlı insanlar üçün oruc ibadəti nə qədər vacibdir?

### "UŞAQLAR ORUC TUTMAĞA MƏCBUR DEYİLLƏR"

İçərişəhər "Cümə" məscidinin axundu, Qafqaz Müsəlmanları İdarəsinin İçərişəhər üzrə səlahiyyətli nümayəndəsi Hacı Surxay Məmmədli "Kaspi"yə bildirib ki, İslam dininə görə oruc ibadəti həddi-buluğa çatmış, sağlam müsəlmanlara vacibdir: "Həddi-buluğ yaşı islama görə uşaqlar üçün 9-15 yaş arasında dəyişir. Bundan əvvəl uşaqlar dini cəhətdən oruc tutmağa məcbur deyillər. Lakin valideynlər onları bu ibadətə tədricən öyrəşdirə bilərlər. Uşaqlar üçün orucun öyrədilməsi lazımdır. Kiçik yaşlı uşaqlar üçün orucu tam şəkildə tutmaq məcburi deyil. Amma onlara Ramazan ayının əhəmiyyətini anlatmaq üçün qısa müddətli (məsələn, günün yarısına qədər) oruc tuta biləcəkləri tövsiyə edilir. Uşaqlara yavaş-yavaş oruc tutmağın mahiyyəti başa salınır və istəyərlərsə, qismən oruc tuta bilərlər".

Yaşlı insanlara gəlincə, axund bildirir ki, ümumiyyətlə Allah tərəfindən Ramazan ayı orucunun vacib olmasında sağlamlıq əsas şərt kimi qoyulub. Əgər yaşlı insan sağlamdırsa, orucunu tutmalıdır. Yəni burada yaşlı və ya cavanlıq meyarı yox, sağlamlıq meyarı əsas götürülür.


Hacı Surxay Məmmədli

### ÖNCƏ ORUCUN MAHİYYƏTİ İZAH EDİLMƏLİDİR

Pediatr-infeksionist Aytən Ziyadova bildirib ki, uşaqlar və yaşlılar Ramazan ayında oruc tutmaq baxımından xüsusi diqqət tələb edən qruplardır: "Həm uşaqlar, həm də yaşlılar oruc tutarkən müəyyən sağlamlıq riskləri ilə qarşılaşa bilərlər. Buna görə onların oruc tutmağı barədə düşünərkən bir neçə faktoru nəzərə alırıq. Uşaqlar üçün oruc tutmağa başlama yaşı 12 və daha üstüdür. Bu yaşda bədənin fiziki və ruhi inkişafı yetərli olur və oruc tutmaq uşaqların sağlamlığına zərər verməz. Ancaq uşaqların fərdi inkişafı fərqli olduğuna görə, valideynlər onların sağlamlıq və psixoloji vəziyyətini nəzərə alaraq qərar verməlidirlər. Həmçinin, oruc tutmağa başlamazdan əvvəl uşaqlara bu ibadətin nə olduğunu və niyə tutulduğunu izah etmək çox vacibdir. Uşaqlar oruc tutmağa başlamadan əvvəl, onları dini və mənəvi cəhətdən hazırlamaq vacibdir. Oruc tutmanın nə olduğunu, niyə tutulduğunu və bunun bədənlərinə necə təsir edəcəyini anladan söhbətlər etmək faydalıdır. Oruc tutmağa başladıqdan sonra, onların yorğunluq, susuzluq və ya başqa fiziki narahatlıqlar hiss etməsi halında oruc dayandırılmalıdır. Bu, uşaqların sağlamlığını qorumaq üçün vacibdir".

### QİDALANMA ÇOX ÖNƏMLİDİR

Həkim bildirir ki, uşaqlar oruc tutarkən onların qidalanması çox önəmlidir. Sahurda uşaqların protein və lif mənbələri ilə zəngin yeməklər qəbul etməsi vacibdir. Məsələn, yumurta, noxud, qoz və tam buğda çörəyi kimi qidalar enerji verər və uşaqların oruc müddətində daha az yorulmalarına kömək edər. Bundan əlavə, uşaqlara bol su içmək tövsiyə olunmalıdır. Sahurda və iftarda susuzluq yaratmayan və bədəni nəmləndirən qidalar, həmçinin meyvə və tərəvəz yemək faydalıdır. Uşaqların oruc tutması tədricən olmalı və onların bədənləri bu ibadətə alışmalıdır. İlk başda qısa müddətlərdə oruc tutmağa başlamaq və ya günün müəyyən saatlarında oruc tutmaq daha yaxşıdır.



### "YAŞLILARIN SAĞLAMLIQ VƏZİYYƏTİ NƏZƏRƏ ALINMALIDIR"

Müsahibimiz yaşlıların oruc tutmasına da münasibət bildirib: "Yaşlılar üçün oruc tutmaq bədənlərindəki fiziki dəyişikliklər və bəzi sağlamlıq problemləri səbəbindən daha diqqətli yanaşma tələb edir. Oruc tutmağa başlamazdan əvvəl yaşlıların sağlamlıq vəziyyəti qiymətləndirilməlidir. Məsələn, ürək, böyrək, qan təzyiqi və ya şəkər xəstəliyi kimi problemləri olan yaşlılar oruc tutmağı həkimləri ilə müzakirə etməlidirlər. Yaşlılar üçün oruc tutmaq, bədənin ehtiyac duyduğu maye və qida balansını saxlamağa kömək edəcək düzgün qidalanma ilə həyata keçirilməlidir. Sahur və iftar vaxtlarında yüngül və asan həzm olunan qidalar qəbul edilməlidir, ağır yeməklərdən çəkinilməlidir. Lifli qidalar (məsələn, meyvə, tərəvəz, tam buğda məhsulları) və protein mənbələri (yumurta, balıq, ət) oruc tutmağa kömək edə bilər. Bundan əlavə, yaşlılar bol su istehlakına diqqət etməlidirlər. Sahurda bol su içmək, bədənin susuz qalmasının qarşısını alır və oruc zamanı yorğunluğu azaltmağa kömək edir".


Aytən Ziyadova

## "SÜD VERƏN ANALAR DA DİQQƏTLİ OLMALIDIR"

Həkim bildirir ki, süd verən analar da oruc tutarkən diqqətli olmalıdır. Çünki oruc tutarkən südün keyfiyyətində bəzi dəyişikliklər ola bilər. Oruc zamanı ananın istehlak etdiyi qida və maye miqdarı azaldığı üçün südün tərkibində bəzi vitamin, mineralların azalması mümkündür: "Bu səbəbdən ananın düzgün qidalanması və bol maye qəbul etməsi çox önəmlidir. Sahurda bol lifli və protein tərkibli qidalar qəbul edilməsi, südün keyfiyyətini qorumağa kömək edər. Süd verən anaların sahurda liflə zəngin qidalardan istifadə etmələri vacibdir. Tam buğda çörəyi, gavalı və ya ərik kimi meyvələr, süd verən ananın həzm sistemini rahatlaşdırır və uzun müddət toxluq hissini təmin edir. Süd istehsalını dəstəkləmək və enerji səviyyəsini saxlamaq üçün sahurda yumurta, qoz, fındıq və noxud kimi protein tərkibli qidalar mütləq yer almalıdır. Bu qidalar, həmçinin anaların oruc müddətində enerji itirməməsi üçün əhəmiyyətlidir".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
8 MART ŞƏNBƏ 2025

# FANTASTİK KARYERA

2007-ci ildən Azərbaycan bayrağı altında çıxış etməyə başlayan 19 yaşlı idmançı növbəti il ölkəmizi Pekin Olimpiadasında təmsil edir. Burada o, köhnə tanışı İrina Merleni ilə birgə bürünc medal əldə edir. Dörd il sonra növbəti dəfə onların yolu kəsişir. London Olimpiadasında Azərbaycan idmançısı yarımfinalda İrinaya qalib gələrək, kimin güclü olduğunu bir daha sübut edir. Ölkə tarixinin ən titullu idmançılarından biri olan Mariya ümumilikdə dörd dəfə Olimpiya Oyunlarının medalına sahib olub və bunu bacaran üç qadın güləşçidən biridir. O, iki dəfə finalda uduzsa, iki dəfə də fəxri kürsünün üçüncü pilləsində yer alıb. Mariya Azərbaycanın Olimpiya medalı qazanan ilk və yeganə qadın pəhləvanı ünvanını özündə saxlayır. Stadnik iki dəfə dünya, 10 dəfə də Avropanın ən güclüsü adını qazanıb, Avropa Oyunları və İslam Həmrəyliyi Oyunlarında isə ümumilikdə dörd çempionluğu var. Saysız-hesabsız digər uğurlar da əldə edən Stadnik 10 dəfə Azərbaycanda ilin idmançısı seçilib. Onun medal kolleksiyasında çatışmayan yalnız Olimpiya qızılıdır. Belə karyera ilə uzlaşmayan bu məqamı isə sadəcə şanssızlıqla əlaqələndirmək olar.



# QADIN GÜLƏŞİNİN CANLI ƏFSANƏSİ

Azərbaycan idmanında qadınlar böyük zirvələri fəth etməkdə heç də kişilərdən geri qalmırlar. Hələ uzaq 2000-ci ildə Zemfira Meftahətdinova Sidneydə qızıl medal qazanmaqla Olimpiya çempionu adını qazanmışdı. Sonrakı olimpiadalarda da qızlarımız dəfələrlə fəxri kürsüdə yer aldılar, fərdi növlərdə Avropa və dünya çempionatlarında saysız medallar əldə etdilər, həndbol, voleybol kimi komanda yarışlarında uğurlar qazandılar. Onların arasında biri var ki, ölkəmizdə qadın idmanı dedikdə ağla ilk olaraq məhz o, gəlir. Söhbət qadın güləşinin əfsanələrindən olan Mariya Stadnikdən gedir.

### ƏDALƏTSİZLİKLƏ BAŞLAYAN KARYERA

1988-ci ilin 3 iyununda Ukraynanın Lvov şəhərinin kəndlərindən birində dünyaya gələn Mariya 12 yaşında güləşlə məşğul olmağa başlayıb. O, peşəkar idmançı olmaq fikrindən uzaq olsa da, bacarığını görən məşqçilər belə bir istedadı itirmək istəmirlər. Çoxsaylı təkidlərdən sonra balaca Mariya güləşi özünə peşə seçir. Tezliklə Ukraynanın ən yaxşılarından birinə çevrilən qızcığaz 15 yaşında yeniyetmələr arasında Avropa çempionu olur. Ardınca gənclər arasında dünya çempionatında da hamını üstələyən Stadnik üçün növbəti mərhələ Ukrayna qadın yığması idi. Lakin burada o, ədalətsizliklə üzləşir. Yığmanın baş məşqçisi həm də Mariyanın əsas rəqibi İrina Merleninin şəxsi məşqçisi idi. Təbii ki, seçim də daha bacarıqlı Mariya deyil, məhz Merleni olur. Bu məqamda Azərbaycandan gələn təklif Stadnikin karyerasını da, həyatını da tamamilə dəyişir.

**Mariya Azərbaycanın Olimpiya medalı qazanan ilk və yeganə qadın pəhləvanı ünvanını özündə saxlayır.**



## DİQQƏTƏLAYİQ XİDMƏT

Stadnikin uzun illər Azərbaycan idmanına şərəflə xidmət etməsi, şübhəsiz, diqqətdən kənar qala bilməzdi. Onun parlaq nəticələri, ölkəmizi beynəlxalq arenalarda layiqincə təmsil etməsi, dəfələrlə bayrağımızı ucaltması dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Mariya Stadnik Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla "Şərəf", 1-ci və 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri, "Tərəqqi" medalı ilə təltif edilib. İdman nailiyyətlərimə görə, Azərbaycanın ən yüksək mükafatlarına layiq görülən güləşçi Azərbaycanı təmsil etməyi və əməyinə görə yüksək mükafatlar almağı özü üçün böyük şərəf hesab etdiyini bildirib. İllər əvvəl ədalətsizliklə üzləşən Mariya həqiqi dəyərini məhz burada görüb. Stadnik əslən azərbaycanlı olmasa da, ölkə ilə bağlı sosial-siyasi məsələlərdə də haqq mövqeyimizi həmişə ifadə etməklə, Azərbaycan insanında özünə sevgi qazanmağı bacarıb.



## 36 YAŞINDA PEŞƏKAR İDMANLA VİDALAŞDI

Mariya Stadnik ötən ay 36 yaşında peşəkar idmanla vidalaşdığını açıqladı. Lakin o, güləşdən aralanmayacaq. Mariya Azərbaycan Güləş Federasiyasında qadın güləşi üzrə koordinator vəzifəsinə təyin edilib. O, bundan sonra funksioner kimi fəaliyyət göstərəcək və zəngin təcrübəsini qadın güləşinin inkişafı yolunda istifadə edəcək.

İdmançı kimi yüksək fiziki hazırlığı, nizam-intizamı, peşəkarlığı, mübarizə əzmi və ən əsası - sabitliyi ilə diqqət çəkən Mariyanın qarşısında indi yeni bir missiya var. O, bu keyfiyyətlərini gənc azərbaycanlı qadın güləşçilərə aşılamalıdır. Əslində qızlarımız üçün formul sadədir. Mariya Stadnik qədər inadkar, əzmkar, intizamlı və stabil olmaq. O, gənc güləşçilər üçün canlı nümunədir. Saysız-hesabsız uğurlar qazandıqdan sonra 35 yaşında inadla Avropa çempionatında güləşmək və çempion olmaq - Stadnik məhz bu əzmkarlığın sahibidir. İstedadlı güləşçilərimiz onun bu keyfiyyətlərinə yiyələnə bilsələr, kim bilir, bəlkə də Mariya Stadnikin reallaşdıra bilmədiyi yeganə arzusuna çatacaq, Olimpiya qızılını ölkəmizə gətirəcəklər.